## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLAR ÜÇÜN SOSİAL XİDMƏT MÜƏSSİSƏSİNDƏ OLUB



İyunun 20-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Abşeron rayonunun Saray qəsəbəsində 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olublar. AZƏRTAC xəbər verir ki...

➪ Bax səh. 2

## NAZİRLƏR KABİNETİNİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB



İyunun 20-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl və davamlı islahatlardan danışıb. Azərbaycanda reallaşdırılan yeni iqtisadi islahatlar nəticəsində ölkəmizin maliyyə imkanlarının əhəmiyyətli dərəcədə artdığını bildirən Novruz Məmmədov deyib: "Bu, imkan verir ki, digər məsələlərlə yanaşı...

➪ Bax səh. 2




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 21 iyun 2019-cu il, cümə / № 110 (5485). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev: Vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir



*Azərbaycanın dövlət başçısının imzaladığı yeni sərəncamlar ölkədə həyata keçirilən sosial siyasətin inqilabi xarakter daşıdığını əyani şəkildə təsdiqləyir*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Ramil İdris oğlu Usubovun Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Ramil İdris oğlu Usubovun Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi təyin edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Vilayət Süleyman oğlu Eyvazovun Azərbaycan Respublikasının daxili işlər nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Vilayət Süleyman oğlu Eyvazovun Azərbaycan Respublikasının daxili işlər naziri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Mədət Qəzənfər oğlu Quliyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Mədət Qəzənfər oğlu Quliyevin Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Əli Nağı oğlu Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi haqqında Sərəncam imzalayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin təkmilləşdirilməsi barədə Fərman imzalayıb.

# Prezident İlham Əliyev: Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz




Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, aksiomdur. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf dayanır, sərmayə qoyuluşu dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 84-cü kitabında yer alan bu fikirlər Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda dövlətimizin başçısının söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin noyabrından 2018-ci ilin yanvarınadək olan dövrü əhatə edir.

Kitaba Prezident İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair İstanbulda keçirilmiş Zirvə toplantısında, Moskvada MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə çıxışlarının mətnləri, Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri, Davos Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda iştirakı haqqında informasiyalar daxil edilib. Nəşrdə dövlətimizin başçısının Azərbaycana səfərə gəlmiş Əfqanıstan Prezidenti ilə görüşünə və sənədlərin imzalanmasına, Bolqarıstanın Baş Naziri ilə görüşünə dair materiallar yer alıb.

Çoxcildliyin 84-cü kitabında, həmçinin Prezident İlham Əliyevin Xorvatiya, Türkiyə, Pakistan, Hindistan, İran, Estoniya, Rusiya və digər dövlətlərin, Avropa İttifaqının, Beynəlxalq Telekommunikasiya İttifaqının, Dünya Bakının ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsi barədə materiallar toplanıb.

Yeni nəşrə dövlətimizin başçısının Bakıda "Asiyanın qəlbi - İstanbul prosesi" çərçivəsində "Gücləndirilmiş "Asiyanın qəlbi" regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda yeddinci Nazirlər Konfransında nitqinin, 2017-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə çıxışının, "2017 - İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransda nitqinin mətnləri, Azərbaycanın gənc alimlərinin I qurultayının, Azərbaycan memarlarının XIX qurultayının iştirakçılarına məktubları, XXIII Beynəlxalq "BakuTel-2017" Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi ilə tanışlığını əks etdirən informasiyalar daxil edilib.

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 84-cü kitabında, həmçinin dövlətimizin başçısının Ağcabədi, Sabirabad, Quba rayonlarına, Sumqayıt şəhərinə səfərlərinə, bölgələrdə iqtisadi, sosial, mədəniyyət obyektlərinin açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallarla da tanış olmaq mümkündür.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 84-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyunun 20-də Naftalan şəhərinin, Göygöl, Ağcabədi, Zərdab, Siyəzən rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlar imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Prezident İlham Əliyev: Vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir

*Azərbaycanın dövlət başçısının imzaladığı yeni sərəncamlar ölkədə həyata keçirilən sosial siyasətin inqilabi xarakter daşıdığını əyani şəkildə təsdiqləyir*

Müstəqil Azərbaycanın bütün dünyada böyük maraqla izlənilən nümunəvi inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri ondan ibarətdir ki, burada sosial sferaya xüsusi diqqət yetirilir. Azərbaycan sosial dövlətdir. Ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz vətəndaşların mənafeyi dayanır. Müəyyənləşdirilən strateji kursa uyğun olaraq respublikamızda insanların rifah halının davamlı şəkildə yaxşılaşdırılmasına, gəlir imkanlarının artırılmasına, əmək bazarına inteqrasiyanın daha güclü şəkildə təmin edilməsinə, sosial infrastruktur quruculuğunun əhatə dairəsinin genişləndirilməsinə hesablanan tədbirlər görülür.

Məmnunluq hissi ilə vurğulamaq yerinə düşər ki, ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında davamlı şəkildə həyata keçirilən sosial siyasət yaxşı nəticələr verir. BMT-nin bəyan etdiyi Minilliyin İnkişaf Məqsədlərinə qoşulan Azərbaycan qısa müddətdə insan inkişafı indeksini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa və MDB məkanında lider mövqeyə yüksəlməyə nail olub. Bütövlükdə, ölkəmizin sosial siyasəti ardıcıl xarakter daşıyır. Prezident İlham Əliyev cari il mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda söylədiyi nitqində bildirib ki, vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir.

### DÖVLƏT BAŞÇISI TƏRƏFİNDƏN YENİ SƏRƏNCAMLARIN İMZALANMASI İLƏ ÖLKƏMİZDƏ SOSİAL SAHƏDƏ İNQİLABİ ADDIMLARIN NÖVBƏTİ MƏRHƏLƏSİ BAŞLAYIB

Azərbaycanda həyata keçirilən sosial siyasət ardıcıl xarakter daşıyır. Respublikamızda 2019-cu ilin əvvəlindən ötən il anonsu verilən böyük sosial paketin icrası aktiv fazaya daxil olub. Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər bu gün də davam etdirilir. Prezident İlham Əliyevin iyunun 18-də imzaladığı yeni sərəncamlarla dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının nəzərəçarpacaq dərəcədə artırılması Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını, dövlətin vətəndaş üçün olduğunu bir daha əyani şəkildə göstərir.



Bütövlükdə, dövlət başçısının əməkhaqlarının artırılması ilə bağlı imzaladığı sərəncamların əhatə dairəsi kifayət qədər genişdir. Əməkhaqlarının, ələlxüsus da əhalinin həssas qruplarının gəlir imkanlarının əhəmiyyətli dərəcədə artırılması müvafiq kateqoriyadan olan insanların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edir.

Ölkəmizdə Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə inqilabi səciyyə daşıyan sosial islahatların yeni mərhələsinə başlanılmasından söhbət açarkən başqa bir vacib məqama - nəzərdə tutulan tədbirlərin reallaşdırılması üçün zəruri iqtisadi bazanın və maliyyə imkanlarının yaradılmasının önəminə də diqqət yetirmək lazımdır. Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdiyi siyasət praqmatik yanaşmalara əsaslanır. O cümlədən də respublikamızda yeni sosial paketin icrasını yüksək səviyyədə təmin etmək üçün iqtisadi və maliyyə əsasları formalaşdırılıb. Ölkənin iqtisadi qüdrətinin artırılması və sosial məsələlərin adekvat şəkildə həll edilməsi istiqamətində görülən işlər paralel şəkildə həyata keçirilir və bir-birini tamamlayır. Bu da Azərbaycanı unikal sosial-iqtisadi inkişaf modelinə malik ölkə kimi səciyyələndirir. Cari ilin əvvəlindən respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahat tədbirləri nəticəsində milli iqtisadiyyatımızda son illərin ən yaxşı göstəricilərinə nail olunub. Təkcə 2019-cu ilin birinci rübündə büdcə daxilolmaları 200 milyon manatdan çox artıb. Öz növbəsində büdcə gəlirlərinin daha artıq məbləğdə təmin edilməsi sosial sahədə islahatların dərinləşməsi üçün münbit şərait yaradıb. Qazanılan əlavə gəlirlər ilk növbədə ölkə vətəndaşlarının sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına, onların gəlir imkanlarının artırılmasına yönəldilir. Ölkəmizi fərqləndirən bu amilə diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: **"İqtisadi inkişaf, maddi imkanlar olmasa, sosial proqramları həll etmək mümkün olmayacaq. Ona görə iqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə - yüz milyonlarla manat həcmində artmışdır. Bu, bizə əlavə imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin".**

İqtisadi sahədə əldə edilmiş mötəbər uğurların sosial sferaya transformasiyası ölkə başçısının bəyan etdiyi sosial-iqtisadi kursun başlıca prinsipi olmaqla, cari ilin əvvəlindən etibarən vətəndaşların sosial təminatını əhəmiyyətli dərəcədə möhkəmləndirib. Əlavə gəlirlərin ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəldilməsi aparılan sosial siyasətin alternativsiz olduğunu bir daha təsdiqləyir. Ölkə başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən son qərarlar ümumilikdə 2,0 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

### ƏMƏKHAQLARININ ƏHƏMİYYƏTLİ ARTIMI ƏHALİNİN ALICILIQ QABİLİYYƏTİNƏ MÜSBƏT TƏSİR GÖSTƏRMƏKLƏ YANAŞI, ÖLKƏDƏ İQTİSADİ AKTİVLİYİN DAHA DA YÜKSƏLMƏSİNƏ ÖZ TÖHFƏSİNİ VERƏCƏK

Cari ilin əvvəlindən etibarən qəbul edilmiş qərarlar qlobal iqtisadiyyatda müşahidə edilən neqativ meyillərin ölkə əhalisinin sosial təminatına mənfi təsirini mümkün qədər azaltmağa imkan vermişdirsə, yeni sərəncamlar əhalinin gəlirlərinin artmasına, yığım imkanlarının genişlənməsinə şərait yaradacaq. Bir sözlə, əməkhaqlarının əhəmiyyətli artımı əhalinin alıcılıq qabiliyyətinə müsbət təsir göstərməklə yanaşı, ölkədə iqtisadi aktivliyin daha da yüksəlməsinə öz töhfəsini verəcək.

Bütövlükdə, Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar imzaladığı sərəncamlar ölkə vətəndaşlarının maddi vəziyyətinin yaxşılaşdırılması, ələlxüsus da onların gəlir imkanlarının artırılması üçün atılan çox mühüm addımdır. Dövlət başçısının sosial islahatlar paketi cari ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsində, ümumən sosial inkişafda inqilabi addımların atılması ilə nəticələnir.

Prezident İlham Əliyevin iyunun 18-də minimum əməkhaqqının artırılması ilə bağlı imzaladığı Sərəncam da böyük sosial əhəmiyyət daşıyır. Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədi ilə ölkə başçısı tərəfindən minimum əməkhaqqı məbləğinin artırılması özəl sektorda çalışan 350 min vətəndaşla yanaşı, dövlət sektorunda Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan 600 minə yaxın şəxsin əməkhaqqının artımına səbəb olacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən KİV-ə verilən məlumata görə, "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 2019-cu il 18 iyun tarixli Sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq ki, bununla həm də minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) 40 faiz üstələmiş olacaq.

Bu, 2019-cu il ərzində dövlət başçısının tapşırığı ilə minimum əməkhaqqında edilən artıq ikinci ciddi artımdır. Belə ki, hələ bu ilin ilk aylarında Prezident İlham Əliyevin sosial islahatlar proqramının tərkib hissəsi kimi, 2019-cu il 8 fevral tarixli Sərəncamla minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılıb. Göründüyü kimi, cari il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılmasına nail olunur ki, bu da mühüm sosial uğur kimi əhalinin rifahına ciddi dəstək deməkdir. Digər tərəfdən, yeni artımla Azərbaycan minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə MDB ölkələri arasında 2-ci yerdə qərar tutacaq.

### ƏMƏK PENSİYALARININ MİNİMUM MƏBLƏĞİNİN 160 MANATDAN 200 MANATA ÇATDIRILMASI ÇOX CİDDİ SOSİAL TƏŞƏBBÜSDÜR

Azərbaycanda yeni sosial paketin icrası çərçivəsində həmçinin pensiyaların artırılması da nəzərdə tutulub. Bu barədə məlumat verən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib ki, pensiyaların minimum məbləği də oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılacaq ki, bu da dövlət başçısı tərəfindən irəli sürülən çox ciddi sosial təşəbbüsdür.

Bu, təxminən 25 faiz artım deməkdir. İlkin hesablamalara görə, yeni artım 660 mindən çox pensiyaçını əhatə edəcək. Bu il oktyabrın 1-dən etibarən ölkədə 200 manatdan aşağı pensiya alan vətəndaş olmayacaq.

Qeyd edək ki, minimal pensiya səviyyəsinin artımı da il ərzində həyata keçirilən ikinci ciddi artımdır. Belə ki, dövlət başçısının təşəbbüsü ilə qəbul olunan qanunla bu il martın 1-dən minimal pensiya məbləği 116 manatdan 160 manata çatdırılmışdı. Həmin artım ümumilikdə 233 min pensiyaçını əhatə edib. Cari il oktyabrın 1-dən isə ölkəmizdə minimal pensiya məbləği yenidən artırılacaq. Rəqəmlərdən də göründüyü kimi, bu il ərzində Azərbaycanda minimum pensiya məbləğinin əhəmiyyətli şəkildə (72,4 faiz) artması təmin ediləcək.

**Mübariz ABDULLAYEV**

# Birinci vitse-prezident Mehriban Əliyeva sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olub



İyunun 20-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Abşeron rayonunun Saray qəsəbəsində 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olublar.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində uşaqlarla görüşüb, onların yaşayış şəraiti, uşaqlara göstərilən sosial və reabilitasiyayönümlü xidmətlərlə tanış olublar.

Mehriban Əliyeva və Leyla Əliyeva müəssisədəki uşaqların əl işlərindən ibarət sərgiyə baxıblar.

Sağlamlıq imkanları məhdud uşaqların funksional çatışmazlıqlarının aradan qaldırılması, onların bacarıqlarının inkişaf etdirilməsi üçün aparılan reabilitasiya işlərindən biri də onların yaradıcılıq potensiallarının inkişafıdır. Uşaqlar muncuqlarla, plastilinlə müxtəlif əl işləri hazırlayır, rəsmlər çəkir, konstruktor oyunları ilə məşğul olurlar. Müəssisənin sakinləri özlərinin hazırladıqları əl işlərini Mehriban Əliyevaya və Leyla Əliyevaya hədiyyə ediblər.

Qeyd edək ki, bu müəssisə 2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulub. Hazırda burada 5-18 yaş arasında 170-dək uşaq yaşayır. Onlar əsasən uşaq serebral iflici, autizm, daun sindromu, fiziki və əqli inkişafdan geriqalma, mərkəzi sinir sisteminin zədələnməsi - ense-folo-patiya, parez kimi xəstəliklərdən əziyyət çəkirlər.



Birinci vitse-prezident sosial xidmət müəssisəsinin sakinlərinin əhvalı ilə maraqlanıb, onların müalicəsinin müsbət nəticələr verdiyinin şahidi olub. Belə ki, müəssisənin sakinlərindən biri - Xəyalə Hüseynova Mehriban Əliyeva ilə söhbət zamanı Azərbaycan və ingilis dillərində "əlillik qüsur deyil və yaşamaq, yaratmaq üçün məhdudiyyət ola bilməz" dedi. Azərbaycanın Birinci vitse-prezidenti uşaqların arzularını dinləyib, yenidən onların yanına qonaq gələcəyini bildirib, onlara uğurlar arzulayıb. Mehriban Əliyeva uşaqlarla birlikdə kitab oxuyub, nəşrdəki şəkilləri müzakirə edib. Uşaqlar Mehriban Əliyevaya və Leyla Əliyevaya öz bacarıqlarını nümayiş etdiriblər. Onlar Prezident İlham Əliyevin Sərəncamı ilə bu ilin "Nəsimi İli" elan olunduğunu bildirərək, şairin şerlərini səsləndiriblər, mahnılar, rəqslər ifa ediblər.

Sağlamlıq imkanları məhdud uşaqlara dövlət qayğısı ildən-ilə artır. Dövlətimizin başçısının 2019-cu il 15 aprel tarixli Fərmanı ilə həmin uşaqlar üçün aylıq sosial müavinətin məbləği əhəmiyyətli şəkildə artırılmaqla, onlara qulluq edənlər üçün Prezidentin aylıq təqaüdü də təsis olunub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi nəticəsində Bakıda Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi istifadəyə verilib. Bu müəssisədə uşaqlar üçün müasir tələblər səviyyəsində, nümunəvi yaşayış və reabilitasiya şəraiti yaradılıb.

Saray qəsəbəsindəki 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində 12 reabilitasiya otağı fəaliyyət göstərir və onlarda müasir dövrdə prioritet olan yeni reabilitasiya metodları - aktiv terapiya, oyun, ünsiyyət, musiqi, rəqs və digər terapiya növləri və hər bir uşaqla fərdi inkişaf planı əsasında işlər aparılır.

Sonda müəssisəyə Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.

# Nazirlər Kabinetinin növbəti iclası keçirilib



İyunun 20-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Baş Nazir Novruz Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl və davamlı islahatlardan danışıb. Azərbaycanda reallaşdırılan yeni iqtisadi islahatlar nəticəsində ölkəmizin maliyyə imkanlarının əhəmiyyətli dərəcədə artdığını bildirən Novruz Məmmədov deyib: **"Bu, imkan verir ki, digər məsələlərlə yanaşı, ölkə vətəndaşlarının rifah halının daha da yaxşılaşdırılması istiqamətində addımlar atılsın. Bu ilin ilk yarısında dövlətimizin başçısının imzaladığı sosialyönümlü fərmanlar və sərəncamlar 3 milyon vətəndaşımızı əhatə edib. Prezident İlham Əliyevin iyunun 18-də imzaladığı sərəncamlar bir daha göstərdi ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində işlər uğurla davam etdirilir. Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının, eləcə də minimum əməkhaqqının artırılması barədə imzaladığı sərəncamlar geniş əhali kateqoriyasının rifah halının daha da yüksəldilməsinə imkan yaradacaq".**

Bu gün Azərbaycanın dünyanın qabaqcıl dövlətləri ilə ikitərəfli və çoxtərəfli əsasda əlaqələr qurduğunu, xalqımızın maraqlarının təmin olunduğunu, milli dövlətçilik ideyalarının qorunub inkişaf etdirildiyini bildirən Novruz Məmmədov bütün bu uğurların arxasında Prezident İlham Əliyevin yüksək peşəkarlığının və siyasi səriştəsinin dayandığını söyləyib.

Sonra Novruz Məmmədov iclasın gündəliyi barədə məlumat verib.

Bildirilib ki, iclasın gündəliyinə "Qaz təchizatı sahəsində mövcud durum, problemlərin aradan qaldırılması və sistemin dayanıqlı inkişafının təmin edilməsi üzrə kompleks tədbirlər haqqında", "Ölkə əhalisinin keyfiyyətli içməli su və kanalizasiya xidmətləri ilə təmin edilməsi sahəsində görülən işlər, xidmətin keyfiyyətinin yüksəldilməsi və infrastrukturunun daha da təkmilləşdirilməsi ilə bağlı qarşıda duran cari və perspektiv məsələlər haqqında" və "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması işlərinin gedişi haqqında" məsələlər daxildir.

Təbii enerji qaynaqlarının mühüm seqmentini təşkil edən qaz sektorunun Azərbaycanın sosial-iqtisadi həyatında vacib rola malik olduğunu bildirən Baş Nazir qeyd edib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan enerji siyasətinin uğurla icrası nəticəsində ölkəmiz bu sahədə ciddi nailiyyətlər qazanıb. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rola malik ölkədir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 2019-cu il 29 may tarixli Sərəncamında Energetika Nazirliyinə "Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası"nın layihəsinin hazırlanması tapşırılıb.

Baş Nazir bildirib ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında "Azəriqaz" İstehsalat Birliyinin fəaliyyətində yol verilən nöqsanları və bu sahədə olan bir sıra problemləri qeyd edib, çatışmazlıqların aradan qaldırılması, şəffaflığın təmin olunması ilə bağlı tapşırıqlarını verib.

Novruz Məmmədov deyib ki, ölkəmizdə əhalinin keyfiyyətli içməli su və kanalizasiya xidmətləri ilə təmin edilməsi istiqamətində bu günə qədər bir sıra mühüm layihələr icra olunub. Bununla yanaşı, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, su təchizatı xidmətlərinə görə ödəniş səviyyəsinin yüksəldilməsi, istehlak edilən suyun uçotunun dəqiq aparılması və itkilərin qarşısının alınması məqsədilə müvafiq suölçən cihazların quraşdırılması ilə bağlı işlərin davam etdirilməsi qarşıda duran prioritet məsələlərdir.

Baş Nazir əhalinin siyahıyaalınmasına hazırlıqla bağlı görülən işlərdən danışaraq siyahıyaalma məntəqələrinin komplektləşdirilməsinin, zəruri avadanlıqlarla təchiz olunmasının və bununla bağlı əhalinin məlumatlandırılması işlərinin vacibliyini vurğulayıb.

Sonra Energetika naziri Pərviz Şahbazovun, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevin, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynovun, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun gündəlikdəki məsələlərlə bağlı məruzələri dinlənilib.

İclasda mövzularla bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

# Bakıda QDİƏT Parlament Məclisi Baş Assambleyasının 53-cü plenar sessiyası işə başlayıb




İyunun 20-də Milli Məclisdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏT PM) Baş Assambleyasının ikigünlük 53-cü plenar sessiyası öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində QDİƏT PM-in fəaliyyətdə olan sədri, Milli Məclisin Spikeri Oqtay Əsədov giriş nitqi söyləyib.

Oqtay Əsədov sessiyaya təşrif buyurmuş beynəlxalq təşkilatların nümayəndələrini, diplomatik korpusun təmsilçilərini və digər qonaqları Azərbaycan parlamentində görməkdən məmnun olduğunu bildirib.



Sədr qeyd edib ki, müasir dünyada istər qlobal, istərsə də regional problemlərin həllində parla-



mentlərin həm ikitərəfli, həm də çoxtərəfli formatda iş birliyi mühüm rol oynayır. Bu baxımdan 26 il öncə yaranmış Parlament Assambleyası Qara dəniz bölgəsinin əmin-amanlıq və çiçəklənmə zonasına çevrilməsi məqsədilə müxtəlif təşəbbüslərin irəli sürülməsi və həyata keçirilməsi baxımından çox böyük potensiala malik olduğunu sübuta yetirib.

Parlament Assambleyasının plenar sessiyasının 7 il sonra yenidən Bakıda keçirilməsinə və Qara dəniz bölgəsində energetika məsələsinə həsr olunmasına diqqət yönəldən Oqtay Əsədov deyib ki, bunun rəmzi mənası var: bu 7 il Azərbaycanın yaxından iştirakı ilə həyata keçirilən nəhəng nəqliyyat-enerji layihələrinin köməyi ilə bölgənin iqtisadi mənzərəsinin dəyişdirilməsində mühüm bir dövr təşkil edib.

Milli Məclisin Sədri vurğulayıb ki, Qara dəniz iqtisadi məkanında beynəlxalq və regional əməkdaşlığın gözəl nümunələri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum və TANAP qaz kəmərləri, digər transmilli layihələr nəinki bölgəmizin, həm də Avropa qitəsinin yeni iqtisadi xəritəsinin formalaşmasında mühüm rol oynayır, onun enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verir. Bu layihələr arasında 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin və reallaşdırılmaqda olan TAP qaz kəmərinin əhəmiyyəti xüsusi qeyd edilməlidir.

Qonaqların nəzərinə çatdırılıb ki, Azərbaycan Respublikası Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və onun Parlament Assambleyası çərçivəsində tərəfdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verir. Xüsusilə, parlamentlərarası əməkdaşlığın genişlənməsi və dərinləşməsi təşkilatın üzvü olan dövlətləri qarşıya qoyduqları iqtisadi məqsədlərin əldə edilməsi, o cümlədən dayanıqlı energetikanın inkişafı naminə ikitərəfli və çoxtərəfli əməkdaşlığa kömək göstərə bilər.

**“Regionda yaşayan xalqların firavan gələcəyinin qurulmasına yönələn əməkdaşlıq strategiyamız bölgəmizin yaşayış üçün güvənli bir yerə çevrilməsinə xidmət edir. Təəssüf ki, regionumuzun bir neçə dövlətinin ərazisində mövcud olan silahlı münaqişələr bölgədə əməkdaşlıq imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Azərbaycan Respublikası 25 ildən artıqdır ki, Ermənistanın silahlı təcavüzündən və ərazi işğalından əziyyət çəkir. Biz əminik ki, bütün bu münaqişələr beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları, xüsusən onların arasında başlıca prinsip olan dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında tezliklə həllini tapacaq”,** - deyə Milli Məclisin sədri qeyd edib.

Oqtay Əsədov QDİƏT PM-in bu mötəbər toplantısının işinə uğurlar, bölgəmizə sülh, tərəqqi və əmin-amanlıq arzulayıb.

Sonra iclasda Bolqarıstan Milli Assambleyasının sədri Tsveta Karayançeva çıxış edib.

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun və Bolqarıstanın Xarici İşlər naziri Yekaterina Zaxariyevanın sessiyaya ünvanlanmış təbrik məktubları oxunub. Hər iki məktubda QDİƏT PM-in fəaliyyəti yüksək dəyərləndirilib. Hazırkı tədbirə ev sahibliyi edən Milli Məclisə təşəkkür bildirilib.

Tədbirdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

QDİƏT PM-in Fəxri medalları ilə təltif mərasimində sədr Oqtay Əsədov ötən il 25 yaşını qeyd edən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafında bütün üzv ölkələrin milli nümayəndə heyətlərinin rolunu və əməyini yüksək qiymətləndirib. Qurumun fəaliyyətində fərqlənmiş Otari Danelia (Gürcüstan), Mixail Yemelyanov (Rusiya), Cemal Öztürk (Türkiyə), Refat Çubarov (Ukrayna), Ramazan Can (Türkiyə), David Saqanelidze (Gürcüstan), Georq Vlad Nistor (Rumıniya), Ramaz Nikolaşvili (Gürcüstan) və Eldar Quliyev (Azərbaycan) Fəxri medala layiq görülüblər. Təltif edilənlərin xatirə şəkilləri, Milli Məclisin binası qarşısında sessiya iştirakçılarının ailə fotosu çəkdirilib.

Fasilədən sonra QDİƏT PM-in 53-cü plenar sessiyası işini davam etdirib.

Türkiyə nümayəndə heyətinin rəhbəri Cemal Öztürkün sədrlik etdiyi birinci iclasda qurumun ötən payız keçirilmiş 52-ci plenar iclasının protokolu təsdiqlənib.

Gürcüstanın Acarıstan Muxtar Respublikasının Ali Sovetinə QDİƏT PM-in tərəfdaşı statusu verilib. QDİƏT-in və bu qurumun Ticarət və İnkişaf Bankının fəaliyyətlərinə dair məruzələr dinlənilib.

Sonra birinci iclas öz işini QDİƏT PM-in fəaliyyətdə olan sədri, Milli Məclisin Sədri Oqtay Əsədovun sədrliyi ilə davam etdirib. Təşkilati məsələlərə baxılıb. Prosedur qaydalarına müvafiq olaraq Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin sədr müavinləri seçilib.

QDİƏT Parlament Məclisinin hazırkı Baş katibi Asəf Hacıyev gizli səsvermə zamanı böyük səs çoxluğu ilə yenidən qurumun Baş katibi postuna layiq görülüb. O, qarşıdakı 5 il müddətində bu vəzifəni icra edəcək.

Seçkidən sonra Asəf Hacıyev çıxış edərək göstərilən etimada görə həmkarlarına təşəkkür edib, indiyədək görülmüş işlər və gələcək planlar barədə danışıb. O, QDİƏT-in üzvü olan Azərbaycanın siyasətinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş Assambleyasına sədrlik 6 ay müddətinə Azərbaycandan Bolqarıstana keçib. Milli Məclisin Sədri Oqtay Əsədov rəmzi çəkici Bolqarıstan Milli Assambleyasının Sədri Tsveta Karayançevaya təqdim edib. Estafeti qəbul edən T.Karayançeva çıxışında vurğulayıb ki, Azərbaycanın Assambleyadakı 6 aylıq sədrliyi çox məhsuldar keçib və qurumun inkişafına layiqli töhfələr verib. Bildirib ki, 54-cü plenar sessiya bu ilin noyabrında Sofiyada olacaq.

QDİƏT PM-in yeni sədri Tsveta Karayançeva bəyan edib ki, Azərbaycan Prezidenti İlham Əliyev təşəbbüskarı olduğu irimiqyaslı enerji layihələri, neft-qaz kəmərləri və infrastruktur layihələrinə görə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin “Şərəf” medalına layiq görülüb. İclasda həmin ali mükafat Azərbaycan parlamentinin rəhbərinə təqdim olunub.

Daha sonra QDİƏT PM-in 53-cü plenar sessiyasının ikinci iclası keçirilib. Bolqarıstan nümayəndə heyətinin rəhbəri Petar Kanevin sədrlik etdiyi iclasda “QDİƏT regionunda dayanıqlı energetikanın inkişafında parlamentlərin rolunun möhkəmləndirilməsi” mövzusunda geniş diskussiya aparılıb. İqtisadi, ticarət, texnoloji və ekoloji məsələlər gündəmdə olub. Məruzələrə dair tövsiyələr qəbul edilib. Yekunda parlament assambleyalarının və beynəlxalq təşkilatların nümayəndələri fikirlərini bölüşüblər.

QDİƏT PM-in 53-cü sessiyası işini iyunun 21-də davam etdirəcək.

# Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib




İyunun 20-də Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Muğam Mərkəzində təşkil edilən tədbirin iştirakçıları əvvəlcə qaçqınların və məcburi köçkünlərin həyatından bəhs edən fotosərgiyə baxıblar.

Tədbiri açan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Quido Ambroso tədbirin təşkilində göstərdiyi dəstəyə görə Azərbaycan Hökumətinə və Heydər Əliyev Fonduna minnətdarlığını bildirib.

Sonra BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandinin videomüraciəti nümayiş etdirilib.



Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov tədbirdə çıxış edərək bildirib ki, qaçqın və məcburi köçkün problemi bu gün dünyanı narahat edən məsələdir. Bu gün dünyada 70 mil-




yondan çox qaçqın və məcburi köçkün var. Bu problemin həlli üçün dünya dövlətləri, siyasətçilər ciddi səy göstərməlidirlər. Ölkələr qaçqın və məcburi köçkünlərə yardımlar edirlər. Bu, yaxşı haldır. Ancaq münaqişənin həlli kökündən həll olunaraq qaçqınlığa, köçkünlüyə son qoyulmalıdır. Məhz müharibələrin səbəbidir ki, dünyada qaçqın ordusunun sayı artır.

Baş Nazirin müavini bildirib ki, Azərbaycan 30 ildən çoxdur bu problemlə üz-üzədir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanı çətin vəziyyətə salan bu məsələyə vaxtilə lazımi diqqətin yetirilməməsi səbəbindən indi bütün dünya bu ağır problemlə üzləşib. Bu gün bu problemi yaradan səbəblər araşdırılmalı, məsələnin həlli istiqamətində birgə səylər göstərilməlidir. Azərbaycan dövlətinin böyük səyləri nəticəsində bu gün ölkəmizdə qaçqınların və məcburi köçkünlərin sosial vəziyyəti xeyli yaxşılaşıb. Lakin hələ də onlar öz yurd-yuvalarına qayıtmayıblar. **“Düşünürəm ki, Azərbaycanın haqq səsini vaxtilə eşitməyənlər bu gün bizim çağırışımızı dinləyəcəklər. Bizim hədəfimiz işğal olunmuş torpaqlarımızı azad etmək və qaçqın, köçkün düşən vətəndaşlarımızı öz yurd-yuvalarına qaytarmaqdır”,** - deyə Əli Əhmədov qeyd edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev deyib ki, bugünkü tədbirin keçirilməsində əsas məqsəd bu problemin nə qədər vacib olduğunu bir daha diqqətə çatdırmaqdır. Azərbaycanda qaçqın və məcburi köçkün problemi ilə bağlı əsaslı işlər görülür. Lakin bu problem bütün dünyada böyük narahatlıq yaradır. Aidiyyəti təşkilatlar qaçqın və məcburi köçkün probleminin həlli ilə bağlı birgə çalışmalıdırlar.

R.Rzayev Azərbaycanda məcburi köçkünlərə yaradılan sosial imkanlardan danışıb. O qeyd edib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirib. Ancaq buna baxmayaraq, ölkə rəhbərliyi bu gün onların öz yurd-yuvalarına qayıtmaları üçün çalışır.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov bildirib ki, qaçqın, köçkün problemi həqiqətən də qlobal problemdir və ciddi yanaşma tələb edir. Təəssüf ki, bu problem dünya miqyasında getdikcə artır. Dünyada cərəyana edən siyasi proseslər 70 milyon insana ağır dərəcədə təsir edir. Problemin daha da dərinləşməməsi üçün ciddi işlər görmək lazımdır. Böyük dövlətlər ikili standartları və məsələyə laqeydliyi aradan qaldırmalıdırlar. Azərbaycan qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məsələsində nümunədir. Lakin məsələ bununla bitmir. Bu insanlar öz doğma torpaqlarına qayıtmalıdırlar.

Sonra Dövlət Miqrasiya Xidmətinin Ümumdünya Qaçqınlar Günü ilə bağlı hazırladığı videoçarx nümayiş olunub.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai qeyd edib ki, qaçqın və məcburi köçkün problemi dünya üçün ciddi təhlükədir. BMT-nin iqlim dəyişikliyinə və digər problemlərə qarşı mübarizə apardığı bir dövrdə ən çox diqqət qaçqın və məcburi köçkünlərin üzərinə yönəlməlidir. Bu il dünyada öz yurd-yuvalarından didərgin düşən insanların sayı ən yüksək həddə çatıb. Bu, bizi problemi yaradan səbəblər barədə dərindən düşünməyə vadar edir. Məsələnin həlli üçün bütün dövlətlər və aidiyyəti təşkilatlar birgə səy göstərməlidirlər.

Q.İshaqzai vurğulayıb ki, Azərbaycan qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində böyük səylər göstərir. Azərbaycan dünyadakı qaçqın probleminin həlli ilə bağlı görülən işlərə töhfə vermək, müxtəlif ölkələrdən buraya gələn qaçqınlara himayə göstərmək üçün böyük imkanlara malikdir və bu imkanlarından geniş istifadə edir.

“Alman Qaçqın Akademik Təşəbbüsü” təqaüd proqramı vasitəsilə Azərbaycanda təhsil alan əfqanıstanlı qaçqın tələbə Zəhra Muhamədi ölkəmizdə ona yaradılan şəraitdən danışıb. O qeyd edib ki, 19 ildir Azərbaycanda yaşayır. O, 9 aylıq körpə olanda valideynləri Əfqanıstandan qaçdığını deyən Zəhra ona və ailəsinə yaradılan imkana görə Azərbaycan Hökumətinə minnətdarlığını bildirib.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Quido Ambroso tədbirə yekun vuraraq qeyd edib ki, qaçqın və məcburi köçkünlər diqqətdən kənarda qalmamalıdırlar. Dünyada davam edən münaqişələr qaçqın və məcburi köçkünlərin sayını artırır.

O qeyd edib ki, bu gün Azərbaycanda məcburi köçkünlərin vəziyyəti xeyli yaxşılaşıb. Ancaq onlar öz yurd-yuvalarına qayıda bilmirlər. Quido Ambroso deyib ki, müxtəlif ölkələrdən Azərbaycanda məskunlaşan qaçqınlara da diqqət və qayğı göstərilir. Uşaqların təhsil almaları üçün Azərbaycan Hökuməti tərəfindən imkanlar yaradılır. Onlar müxtəlif sosial layihələrdən yararlanırlar.

Tədbir bədii hissə ilə davam edib.

# Əli Əhmədov: Özəl sektorda çalışanların da əməkhaqqının artırılması nəzərdə tutulur



Dövlət sektorunda çalışanlarla yanaşı, özəl müəssisələrin işçiləri üçün də minimum əməkhaqqına uyğun olaraq, əməkhaqqının artırılması nəzərdə tutulur.

“Trend”in məlumatına görə, bunu Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov deyib.

Əli Əhmədovun sözlərinə görə, bir neçə gün öncə Prezident İlham Əliyev ölkədə minimum əməkhaqqının, dövlət qurumlarında çalışan işçilərin, müəllimlərin əməkhaqlarının artırılması ilə bağlı sərəncamlar imzalayıb.

Bu yaxınlarda isə ölkədə minimum pensiya həddinin müəyyən olunması haqqında Sərəncam imzalanacaq.

Ə.Əhmədov deyib ki, bu sərəncamlar aztəminatlı ailələrin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına kömək edəcək.

Onun sözlərinə görə, 2019-cu ilin yarım ili ərzində minimum əməkhaqqı təxminən iki dəfə artırılıb: **“Ayrı-ayrı dövlət qurumlarında çalışan işçilərin əməkhaqlarının təxminən 40 faiz artırılması barədə də sərəncamlar imzalanıb. Beləliklə, 100 minlərlə insanın əməkhaqqının bu sənədlərlə artırılması nəzərdə tutulub. Minimum əməkhaqqının artırılması vahid əməkhaqqı cədvəlinə uyğun olaraq, digər işçilərin də əməkhaqlarında artımları olmasını avtomatik təmin edəcək və bu, yüzminlərlə Azərbaycan vətəndaşının həyatını yaxşılaşdıra biləcək”.**

Əli Əhmədov bildirib ki, Azərbaycanda həyata keçirilən islahatlar dövlət büdcəsinə vəsaitlərin artımını təmin edib. Bunun nəticəsində vətəndaşlar üçün çox ciddi sosial paketlər qəbul edilib.

Yaxın zamanlarda insanların bu paketlərin faydasını görəcəyini deyən Baş Nazirin müavini qeyd edib ki, ölkə vətəndaşlarının sosial rifahının daha da yaxşılaşdırılması üçün tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcək: **“Ölkənin iqtisadi imkanları, dövlət büdcəsinə daxil olan vəsaitlər artdıqca insanların rifahının yüksəldilməsi üçün addımlar atılacaq.**

**Azərbaycanda həyata keçirilən islahatlar iqtisadiyyatımızı gücləndirir. Bu ilin ilk aylarında Azərbaycanın ümumi daxili məhsulu xeyli artıb, ölkənin maliyyə imkanları çoxalıb. Azərbaycan vətəndaşları bu artımdan faydalanacaqlar. Azərbaycan hökuməti üçün vətəndaşlarının rifahının yüksəlməsindən ali məqsəd yoxdur”.**

# İrakli Kobaxidze: Gürcüstan-Azərbaycan əlaqələri dostluğa və qarşılıqlı hörmətə söykənir



İyunun 20-də Milli Məclisin Sədri Oqtay Əsədov Gürcüstan parlamentinin Sədri İrakli Kobaxidzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, O.Əsədov İ.Kobaxidzenin parlamentin Sədri qismində Azərbaycana ilk rəsmi səfərinin dost və qardaş ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini söyləyib. O deyib ki, Azərbaycan və gürcü xalqlarının dostluğu qədim tarixə malikdir. Cari ilin payızında Azərbaycan ilə Gürcüstan arasında diplomatik münasibətlərin yaranmasının 27 ili tamam olur. Dövlətlərimiz arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Son illər ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlər və görüşlər daha da intensivləşib.

Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycanla Gürcüstan arasında güclü hüquqi baza mövcuddur. Ölkələrimiz arasında 100-dən çox sənəd imzalanıb, 16 sənəd isə baxılmaqdadır. Eyni zamanda, iqtisadi sahədə qarşılıqlı faydalı əməkdaşlıq inkişaf edir. Azərbaycanla Gürcüstan arasında ticarət dövriyyəsinin həcmi 2018-ci il üzrə 580 milyon dollar təşkil edib. 2019-cu ilin yanvar-aprel aylarında bu göstərici 243 milyon dollar olub.

Oqtay Əsədov deyib ki, Gürcüstan Azərbaycan tərəfindən həyata keçirilən irimiqyaslı beynəlxalq enerji layihələrinin fəal iştirakçısıdır.

Milli Məclisin Sədri vurğulayıb ki, ali qanunverici orqanlarımız dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynayır. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir, nümayəndə heyətlərimizin mütəmadi qarşılıqlı səfərləri həyata keçirilir. Deputatlarımız mötəbər beynəlxalq parlament qurumları çərçivəsində, o cümlədən AŞPA, ATƏT PA, NATO PA, QDİƏT PM, GUAM PA-da əməkdaşlıq edir, bir-birilərinin mövqelərini dəstəkləyirlər.

Oqtay Əsədov böyük təəssüf hissi ilə söyləyib ki, hər iki ölkə ərazi bütövlüyümüzə təhlükə yaradan separatizmlə üzləşib. İnanırıq ki, regional münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn normaları çərçivəsində, dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında öz ədalətli həllini tapacaq.

Gürcüstan parlamentinin Sədri İrakli Kobaxidze səfərdən məmnun olduğunu deyib. O bildirib ki, bu gün Gürcüstan və Azərbaycan strateji və etibarlı tərəfdaşlardır. İki ölkə arasında münasibətlərin inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləri böyükdür. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün əlaqələrimiz dinamik inkişaf edir. Ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq önəmlidir. Siyasi sahədə həm ikitərəfli, həm də beynəlxalq səviyyədə yaxşı münasibətlər qurulub. Azərbaycan və Gürcüstan bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşır. İnanırıq ki, münaqişələr sülh yolu ilə həll olunacaq. Ölkələrimiz üçün sülh və sabitlik böyük əhəmiyyətə malikdir. Biz Avropa Şurasında, QDİƏT-də əməkdaşlıq edirik, bir-birimizin maraqlarını dəstəkləyirik. Siyasi sahədə münasibətlərin inkişafında parlamentlərarası əlaqələr çox vacibdir. Qanunverici orqanlar arasında əlaqələrin gücləndirilməsində informasiya və təcrübə mübadiləsi baxımından nümayəndə heyətlərinin qarşılıqlı səfərləri çox əhəmiyyətlidir.

Gürcüstan parlamentinin Sədri iqtisadi sahədə əlaqələrə toxunaraq enerji və nəqliyyat sahələrində, o cümlədən Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə həyata keçirilən üçtərəfli layihələrin önəmli olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, Azərbaycan investorları Gürcüstanda geniş şəkildə təqdim olunublar. Mədəniyyət, təhsil, turizm sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Əlaqələrimiz dostluq və qarşılıqlı hörmətə söykənir. Bu dostluğa heç bir qüvvə təsir edə bilməz.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, Sədr müavini Bahar Muradova, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Əflatun Amaşov, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Gürcüstan parlamentinin deputatları və digər rəsmi şəxslər iştirak ediblər.

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan dövlətinin siyasətinin əsas xəttini təşkil edir



*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli www.yap.org.az saytına müsahibə verib:*

**- Hadi müəllim, bildiyimiz kimi, ötən dövr ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət başçısı tərəfindən mühüm Fərman və sərəncamlar imzalanıb. Bütün bunlar konkret olaraq faktlarda özünün əksini necə tapır?**

- Həqiqətən də, Prezident İlham Əliyevin sosial sahə ilə bağlı qərarları, Fərman və sərəncamları inqilabi xarakter daşıyır. Bu yöndə qərarlar 2018-ci ildən etibarən xüsusilə intensivləşib. Bu istiqamətdə atılan addımlar müqayisəyəgəlməzdir. Bilirsiniz ki, ötən il seçkilərdə qələbə qazandıqdan sonra Prezident cənab İlham Əliyevin imzaladığı ilk Fərmanın - 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Bütövlükdə, ötən bir il ərzində şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində vacib qərarlar verilib. Belə ki, şəhid ailələri üçün verilən Prezident təqaüdü artırılıb, bu kateqoriyaya aid olan insanların mənzillərlə və avtomobillərlə təminatı daha da yaxşılaşdırılıb, eləcə də qaçqın və məcburi köçkünlər üçün aylıq sosial müavinət artırılıb, yeni şəhərciklər inşa edilərək istifadəyə verilib.

Bütün bunlarla yanaşı, bu ilin əvvəlindən minimum pensiyanın, minimum əməkhaqqının artırılması da vacib məqamlardan biri idi. Fevralın 25-də dövlət başçısının imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncama əsasən aprelin 1-dən bir sıra ödəmələr əhəmiyyətli dərəcədə artırılıb. Problemli kreditlərin həlli ilə bağlı dövlət başçısının verdiyi qərar və s. addımlar da bir daha təsdiqləyir ki, dövlət siyasətinin əsasında vətəndaş amili dayanır.

"2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır", - deyə bəyan edən cənab Prezidentin bu fikirləri Onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb.

**- İyunun 18-də Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə minimum əməkhaqqı yenə də artırıldı, eləcə də müxtəlif kateqoriyalar üzrə çalışanların maaşlarında artım baş verdi. Bu barədə nə deyə bilərsiniz?**

- Prezident İlham Əliyev çıxışlarında dəfələrlə 2019-cu ilin əhalinin sosial müdafiəsinin güclənməsi ili olacağını bildirib. Dövlətimizin başçısının cari ilin əvvəlindən verdiyi qərarlar əhalinin rifahının daha da yaxşılaşmasını təmin edir. İyunun 18-də imzalanmış sərəncamlar da məhz bu məqsədə xidmət edir.

Azərbaycan Prezidentinin imzaladığı yeni Sərəncamla minimum əməkhaqqı 180 manatdan 250 manata çatdırıldı. Bu da 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanların 600 mini dövlət qurumlarında çalışırsa, 350 mini özəl sektorda fəaliyyət göstərir. Bununla yanaşı, iyunun 18-də imzalanan sərəncamlarla dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqları nəzərəçarpacaq dərəcədə artırıldı. Bu sərəncamlar Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını, dövlətin hər bir vətəndaşının yanında olduğunu bir daha əyani şəkildə göstərir. Beləliklə, imzalanan hər bir Sərəncam Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına yönəlib.

Bu gün ölkəmiz güclü iqtisadi imkanlara malikdir. Azərbaycanın iqtisadi qüdrəti, ixrac potensialı ilbəil artır, qeyri-neft sektoru inkişaf edir. Ölkəmizin təşəbbüsü ilə irimiqyaslı qlobal layihələr uğurla icra edilir. Görülən bütün bu işlərin nəticəsində isə hər bir Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır. Bu cür sosial inqilab xarakterli qərarlar davamlı xarakter alıb. İlin sonunadək vaxtaşırı belə qərarlar veriləcək. Nəticədə vətəndaşlarımızın güzəranı daha da yaxşılaşacaq.

**- İlin sonuna qədər əhalinin sosial müdafiəsi istiqamətində daha hansı addımların atılması gözlənilir?**

- Azərbaycanda əmək pensiyalarının artırılması üçün qanunvericiliyə dəyişiklik edilir. Bilirsiniz ki, iyunun 20-də parlamentin Əmək və sosial siyasət komitəsində "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik layihəsi müzakirəyə çıxarılıb.

Dəyişiklik əmək pensiyalarının minimum məbləğinin artırılması ilə bağlıdır. Layihəyə əsasən, qanunun 6-1-ci maddəsinin (Əmək pensiyasının minimum məbləği) mətni yeni redaksiyada verilir. Yeni redaksiya belədir: "Əmək pensiyasının minimum məbləği 2019-cu il 1 oktyabr tarixindən 200 manat müəyyən olunur. Təyin edilən əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir". Bu məsələ parlamentin plenar iclasına tövsiyə olunub və şübhəsiz ki, deputatlarımız bu qanunu birmənalı olaraq dəstəkləyəcəklər.

Qeyd etdiyim kimi, Azərbaycan sosialyönümlü dövlətdir və gələcəkdə də belə qərarlar qəbul ediləcək. Çünki əhalinin sosial müdafiəsinin gücləndirilməsi və yaxşılaşdırılması Azərbaycan dövlətinin və dövlət başçısının siyasətinin əsas xəttini təşkil edir.

# Azərbaycan və Bolqarıstan strateji tərəfdaşlardır



İyunun 20-də Milli Məclisin Sədri Oqtay Əsədov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin 53-cü Baş Assambleyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bolqarıstan Xalq Məclisinin Sədri xanım Tsveta Karayançevanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Azərbaycan ilə Bolqarıstan arasında əlaqələrin dərin köklərinin olduğunu deyib. Sədr qeyd edib ki, hələ Sovet İttifaqının dağılmasına qədər iki ölkə arasında elm, təhsil və mədəniyyət sahələrində sıx əlaqələr qurulmuşdu. Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra bu münasibətlər daha da inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Ölkələrimiz arasında siyasi əlaqələr də yüksək səviyyədədir. Siyasi əlaqələrin inkişafında dövlət başçılarımızın və onların qarşılıqlı səfərlərinin mühüm rolu var. Prezident İlham Əliyevin 2015-ci ilin mart ayında Bolqarıstana səfəri zamanı imzalanmış "Strateji Tərəfdaşlıq haqqında Bəyannamə" qarşılıqlı əlaqələrin genişləndirilməsinə əhəmiyyətli töhfə verir. Hazırda Azərbaycan Hökuməti və Bolqarıstan Hökuməti arasında iqtisadi-ticarət və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiya fəaliyyət göstərir. Ölkələrimiz arasında ticarət dövriyyəsi artmaqda davam edir. Ticarət dövriyyəsini daha da artırmaq üçün geniş potensial mövcuddur.

Sədr bildirib ki, bu gün ölkələrimiz enerji sahəsində də uğurlu əməkdaşlıq edir. Bolqarıstan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə olan Cənub Qaz Dəhlizinin iştirakçısıdır. Azərbaycan Bolqarıstan vasitəsilə Avropaya enerji daşıyıcıları təchizatı ilə bağlı layihələri inkişaf etdirmək niyyətindədir.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən xanım Tsveta Karayançeva iki ölkə arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə edib.

Söhbət zamanı təhsil, mədəniyyət, parlamentlərarası əlaqələrin inkişafı barədə fikir mübadiləsi aparılıb. Ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığı yüksək qiymətləndirilib, parlamentlərarası dostluq qruplarının fəaliyyətlərinin daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə Milli Məclis Sədrinin müavini Bahar Muradova, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycan-Bolqarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rauf Əliyev, hər iki ölkənin səfirləri Nərgiz Qurbanova, Nikolay Yankov və digər rəsmi şəxslər iştirak ediblər.

# Prezident İlham Əliyev tərəfindən minimum əməkhaqqının artırılması 2019-cu ilin ilk aylarından atılan inqilabi addımların davamıdır

*Artımdan sonra minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB ölkələri arasında ikinci yerdə qərarlaşıb*



*Sevinc Fətəliyeva: Əhalinin sosial müdafiəsinin davamlı olaraq gücləndirilməsi daim diqqət mərkəzindədir*



*Tahir Mirkişili: Minimum əməkhaqqının 180 manatdan 250 manata qaldırılması çox mühüm addımdır*

Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" cari il iyunun 18-də imzaladığı Sərəncam respublikamızda əhalinin rifah halının yaxşılaşdırılması sahəsində 2019-cu ilin ilk aylarından atılan inqilabi addımların davamıdır. Sərəncama əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Onlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Həmin artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir.

Yeni "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir. Belə ki, bundan əvvəl dövlət başçısının bu il fevralın 8-də imzaladığı Sərəncamla da minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılmış və həmin artım 600 minədək insanı əhatə etmişdi. Dövlət başçısının uğurlu sosial islahatlar proqramı təkcə bu il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılması kimi əhalinin rifahına ciddi dəstək olan mühüm sosial uğura nail olmağa imkan verib. Artımdan sonra minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB ölkələri arasında ikinci yerdə qərarlaşıb.

Məsələ ilə bağlı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, Yeni Azərbaycan Partiyası (YAP) Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin siyasətində əhalinin sosial müdafiəsinin davamlı olaraq gücləndirilməsi daim diqqət mərkəzindədir. Onun sözlərinə görə, iyunun 18-də dövlət başçısının imzaladığı Sərəncamla minimum əməkhaqqının 250 manata qədər artırılması bu faktı bir daha təsdiqləyir. Ölkəmizin iqtisadi inkişafı insanların sosial rifahının yüksəlməsi ilə müşayiət olunur.

S.Fətəliyeva bildirib ki, Azərbaycan sosial-iqtisadi sferada sürətli inkişaf yoluna qədəm qoyub. Onun sözlərinə görə, əhalinin sosial rifahının yüksəldilməsi üçün lazımi addımlar atılır: **"Əməkhaqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən geniş proqramlar, şəhid ailələrinə göstərilən qayğı, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar və s. vətəndaşların rifah halının yaxşılaşmasına yönəlmiş tədbirlərdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli formalaşıb və sosial inkişaf məsələləri də dövlət siyasətinin prioritetləri sırasındadır. Dövlət başçısının vurğuladığı kimi, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır".**

Millət vəkilinin sözlərinə görə, sosial siyasətdən bəhs edərkən son vaxtlar ölkə Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə atılan addımlar xüsusi vurğulanmalıdır. Belə ki, dövlət başçısının şəhid ailələrinin üzvləri ilə görüşməsi, torpaqlarımızın müdafiəsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında Fərmanın imzalanması, şəhid ailələri üçün Prezident təqaüdünün məbləğinin artırılması, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün qəsəbələrin tikintisi, minimum əməkhaqqının və minimum pensiyanın artırılması məhz ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasətin əhəmiyyətini bir daha təsdiqləyir. Deputat deyib ki, dövlət başçısının problemli kreditlərin həlli ilə bağlı verdiyi qərar da vətəndaşlarda böyük məmnunluq doğurdu. Bu faktlar bir daha təsdiqləyir ki, dövlət vətəndaşları narahat edən məsələlərin həllinə diqqətlə yanaşır. **"Beləliklə, sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədi ilə ölkə başçısı tərəfindən minimum əməkhaqqı məbləğinin 40 faizə yaxın artırılaraq 250 manata çatdırılması özəl sektorda çalışan 350 min vətəndaşla yanaşı, dövlət sektorunda Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan 600 minə yaxın şəxsin əməkhaqqının artımına səbəb olacaq. Cənab Prezident tərəfindən aparılan sosial-iqtisadi siyasətinin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu qərarlar ümumilikdə 2 milyondan çox insanı əhatə etməklə, əhalinin sosial vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq",** - deyə S.Fətəliyeva vurğulayıb.

**"2018-ci ildə Prezident İlham Əliyev tərəfindən aparılan iqtisadi islahatlar iqtisadiyyatda şəffaflığın səviyyəsini artırdı, iqtisadi artımın yeni mənbələrinin tapılmasına imkan yaratdı, qeyri-neft sektorunun sürətli inkişafını təmin etdi. Təbii ki, bütün bu nəticələr özünü həm də dövlət büdcəsinin gəlirlərinin artımında, inflyasiyanın aşağı səviyyədə qalmasında, ixracın artımında və Azərbaycanın strateji valyuta ehtiyatlarının həcminin artmasında göstərdi".** Bu fikirləri isə Milli Məclisin deputatı Tahir Mirkişili deyib. T.Mirkişili bildirib ki, 2018-ci ildə qəbul olunmuş 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər və 2019-cu ilin əvvəlindən başlayaraq artan büdcə gəlirləri hesabına Prezident İlham Əliyevin sərəncamları ilə geniş sosial paket elan edildi. Bu sosial paket 3 milyondan çox insanı əhatə edərək minimum əmək haqlarının, pensiya təminatlarının, təqaüdlərin, sosial müavinətlərin və s. artmasına, problemli kreditlərin vətəndaşların xeyrinə həll olunmasına səbəb oldu. Sosial paket elan edilərkən Prezident İlham Əliyev bu paketin davam edəcəyini və artan iqtisadi resursların bir daha əhalinin maddi rifah halının yaxşılaşdırılmasına yönəldiləcəyini bildirmişdi. 2019-cu ilin sürətli iqtisadi artım ili olacağı da əvvəlcədən planlaşdırılmışdı və ilin 1-ci rübünün iqtisadi yekunları bunu bir daha sübut etdi. Belə bir şəraitdə sosial addımların atılmasının iqtisadi əsasları da təmin edilməkdədir.

**"Dövlət başçısının iyunun 18-də imzaladığı sərəncamlar ilə ilin əvvəlindən elan edilmiş sosial paketin yeni mərhələsi başladıldı. Yeni sərəncamlar 2 milyon vətəndaşı əhatə edir. Minimum əməkhaqqının 180 manatdan 250 manata qaldırılması çox mühüm addımdır. Xatırladım ki, minimum əməkhaqqının yaşayış minimumundan çox olması yoxsulluq səviyyəsinin azaldılmasına da ciddi təsir edəcək. Ölkədə inflyasiyanın səviyyəsinin çox aşağı olması (2.3%) artımın real dəyərinin yüksək olmasına imkan yaradacaq. Dövlət büdcəsi gəlirlərinin indiki artım sürəti və həcmi sosial paketin büdcə vasitəsilə tamamilə maliyyələşməsinə imkan yaradacaq",** - deyə deputat qeyd edib.

NARDAR

# Davamlı islahatlar dövlət qulluğunun təkmilləşdirilməsində mühüm vasitədir



İyunun 23-ü dövlət qulluqçularının peşə bayramı günüdür. AZƏRTAC bu münasibətlə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri, Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İsmayılovun məqaləsini təqdim edir.

* * *

Azərbaycan dövlətinin sürətli inkişafı, dünyanın nüfuzlu iqtisadi qurumları tərəfindən tanınan nailiyyətləri, ilk növbədə, ölkə rəhbərliyinin həyata keçirdiyi ardıcıl və davamlı islahatların nəticəsidir və bu islahatların səmərəsini hər bir Azərbaycan vətəndaşı öz gündəlik həyatında hiss edir, əldə olunan uğurlardan bəhrələnir.

2018-ci ildə keçirilmiş prezident seçkilərindən sonra iqtisadi islahatların növbəti mərhələsinə qədəm qoyan Azərbaycan həyatın bütün sahələrində yeni uğurlara imza atıb və əhalinin güzəranını yaxşılaşdırmaq, ölkənin iqtisadi potensialını gücləndirmək, onun rəqabətqabiliyyətliliyini artırmaq üçün ciddi tədbirlər görüb. İlk növbədə, qeyri-neft sektorunun inkişafına diqqət yetirən dövlətimizin başçısı tərəfindən ölkənin idarəetmə strukturunun təkmilləşdirilməsi, idarəetmə aparatının çevik fəaliyyət göstərməsi üçün təsirli tədbirlər həyata keçirilib, bir çox dövlət orqanlarının strukturu dəyişdirilərək onların bazasında yeni idarəetmə qurumları yaradılıb.

Ölkənin daha da müasirləşdirilməsini, idarəetmə sisteminin təkmilləşdirilməsini əsas məqsəd və vəzifə kimi qarşıya qoyan Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin birinci rübünün yekunlarından bəhs edərkən son illərdə həm sosial, həm də infrastruktur sahələrində insanların rifahının yaxşılaşdırılması istiqamətində əldə olunan nailiyyətləri bilavasitə islahatların nəticəsi kimi dəyərləndirərək onların bundan sonra da qətiyyətlə davam etdiriləcəyini qeyd edib və sürətlə dəyişən dünyada yaranmış vəziyyətin Azərbaycanın qarşısında yeni çağırışlar, yeni məqsədlər qoyduğunu göstərək bir daha vurğulayıb ki, biz daim irəliyə baxmalıyıq, ölkəmizin inkişafını davamlı və uzunmüddətli etməliyik.

Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, aparılan iqtisadi islahatlar nəticəsində iqtisadiyyatımıza sərmayə qoyuluşu xeyli artıb, büdcə gəlirlərinin çoxalması bir çox sosial problemlərin həllinə imkan verib, ölkədə biznes mühiti xeyli yaxşılaşıb, son nəticədə ölkə bütün iqtisadi göstəricilər üzrə ciddi irəliləyiş əldə edib, Dünya Bankının "Doing Business" hesabatında 25-ci yerə layiq görülüb, il ərzində 32 pillə irəliləyərək ən islahatçı ölkələr sırasında yer alıb. İqtisadi nailiyyətlər Azərbaycan xalqının güzəranının daha da yaxşılaşdırılmasına, böyük infrastruktur layihələrinin reallaşdırılmasına, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla həyata keçirilməsinə imkan verib. Təkcə regionların inkişafı proqramları çərçivəsində 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikilib təhvil verilib, digər infrastruktur layihələri, qaz və su xətlərinin çəkilməsi, magistral və yerli əhəmiyyətli yolların salınması uğurla davam etdirilib.

Əlbəttə, bütün bu nailiyyətlərin qazanılmasında, ümumiyyətlə, dövlətin idarə olunmasında əsas qüvvə olan dövlət qulluqçularının rolu nəzərəçarpacaq dərəcədə yüksəkdir. Azərbaycanda iqtisadi yüksəlişin, sabitliyin, əmin-amanlığın təmin edilməsində, əhalinin işlə təmin olunması üçün yeni müəssisələrin açılmasında, ölkə üçün vacib sənaye sahələrinin formalaşdırılmasında, bütövlükdə yeni iş yerlərinin yaradılmasında və bütün resursların ölkə iqtisadiyyatının inkişafına səfərbər edilməsində dövlət orqanlarının və bu orqanlarda xidmət edən qulluqçuların fəaliyyəti böyük əhəmiyyət daşıyır.

Ölkə Prezidenti Azərbaycan xalqının həyat səviyyəsinin yüksəldilməsini, vətəndaşlarımızın problemlərinin həlli üçün bütün dövlət qulluqçularının səfərbər edilməsini, onların ölkədə aparılan quruculuq işlərinin önündə getməsini, mövcud çətinliklərin aradan qaldırılmasında daha fəal iştirak etməsini, vəzifəli şəxslərə qarşı tələbkarlığın gündən-günə artırılmasını daim diqqət mərkəzində saxlayır. Azərbaycan Prezidenti İlham Əliyev haqlı olaraq qeyd edir ki, vətəndaşlara hərtərəfli qayğı nümunəsi göstərən ölkələrdən biri Azərbaycandır və həm keyfiyyət, həm müddət, həm operativlik, həm də əhaliyə qayğı baxımından bu nümunə əvəzsizdir.

Prezident müvafiq icra orqanlarının rəhbərlərindən və məsul şəxslərindən qəti surətdə tələb edir ki, onlar vətəndaşların problemləri ilə müntəzəm məşğul olsunlar, vətəndaşların problemlərinə biganə qalmasınlar, onlara şərait yaratsınlar, dəstək olsunlar və kömək göstərsinlər.

Azərbaycan Respublikasının Prezidenti ölkədə mükəmməl idarəetmə mexanizminin yaradılması, ən müasir idarəetmə formalarının tətbiqi üçün ciddi səylərini davam etdirir. Prezidentin qeyd etdiyi kimi, **"Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, ən ağır məqamlarda dövlət onların yanındadır. Dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməlidirlər, daim vətəndaşların yanında olmalıdırlar".**

Prezident vurğulayır ki, bütün sahələrdə çox ciddi islahatlar aparılır və aparılacaq. O deyir: **"Ümumiyyətlə, idarəetmə sahəsində islahatların aparılmasına böyük ehtiyac var... Hər bir sahədə inkişaf üçün böyük meydan var. Hər bir sahədə, əgər o sahəyə rəhbərlik edən insanlar öz işinə vicdanla yanaşarlarsa, mütləq nəticə olacaq. Bu, ictimaiyyət tərəfindən də mütləq yüksək qiymətləndiriləcəkdir. Ona görə bir daha demək istəyirəm ki, yerli və mərkəzi icra orqanlarının nümayəndələri daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar".**

Bu baxımdan mübaliğəsiz və inamla demək olar ki, Azərbaycan Prezidenti İlham Əliyev öz gündəlik fəaliyyətində dövlət qulluğunun mükəmməl nümunəsini nümayiş etdirir və hər bir məmurdan, hər bir dövlət qulluqçusundan da bunu qətiyyətlə tələb edir.

Dövlət qulluğu sahəsində aparılan islahatlar cəmiyyətin inkişafında həmişə mühüm rol oynayıb və onun inkişafına, müasirləşməsinə müsbət təsirini göstərib. Dövlət idarəçiliyinin ən mühüm elementlərindən biri olan dövlət qulluğunu həyata keçirən insanlar, yəni dövlət qulluqçuları cəmiyyətdə gedən inkişaf proseslərinin həm təşkilatçısı, həm də icraçısıdırlar. Bu sahənin işi nə qədər yaxşı qurulsa, cəmiyyətin uğurları bir o qədər yüksək, nəticələri daha səmərəli olar. Buna görə də dövlətimizin başçısının səyləri ilə Azərbaycanda dövlət qulluğunun optimallaşdırılması, onun ən müasir tələblər səviyyəsinə qaldırılması üçün sistemli və məqsədyönlü iş aparılır.

Azərbaycanda dövlət qulluğunun əsas xüsusiyyətləri və prinsipləri, dövlət qulluğunun təşkilini şərtləndirən normalar 2000-ci ildə Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və qəbul edilmiş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununda və bu Qanun əsasında hazırlanmış dövrün, həyatın, mövcud ictimai vəziyyətin tələbindən irəli gələn çoxsaylı normativ hüquqi aktlarda müəyyən edilib. "Dövlət qulluğu haqqında" Qanun qəbul edildikdən sonra mütəmadi olaraq təkmilləşdirilib, 180-dən artıq dəyişikliklə çox mükəmməl bir hüquqi akt yaradılıb. Ölkədə idarəçiliyin təşkilində mühüm rol oynayan bu aktlarla dövlət qulluqçularının etik davranış qaydaları, icbari sığortası, pensiya təminatı və digər məsələlər tənzimlənir. Dövlət quruculuğu məsələlərinə böyük əhəmiyyət verən dövlətimizin başçısı növbəti prezident seçkilərindən sonra 2000-dən çox fərman və sərəncam imzalayıb. İdarəetmə sahəsində aparılan islahatlar nəticəsində idarəetmə strukturunun təkmilləşdirilərək çevik mexanizmin yaradılması xüsusi diqqət yetirilən vacib məsələlərdən biridir. Son dövrdə bir çox dövlət qurumlarının statusu yenilənərək onlara publik hüquqi şəxs statusu verilib, bununla da onların həm hüquqları genişləndirilib, həm məsuliyyəti artırılıb və həm də müvafiq sahələrin idarə edilməsində daha fəal iştirakı təmin edilib.

Azərbaycan Respublikasının daha sürətli inkişafını təmin etmək üçün sosial və iqtisadi islahatların alternativinin olmadığını qeyd edən dövlətimizin başçısı yaşadığımız 2019-cu ildə də çox ciddi islahatların aparılacağını və dərinləşdiriləcəyini, bunun nəticəsində hər bir sahədə inkişafın, tərəqqinin davam edəcəyini, son nəticədə vətəndaşların daha yaxşı yaşayacağını qeyd edib və aparılan islahatların, şəffaflıqla bağlı görülən işlərin artıq öz bəhrəsini verdiyini göstərib. Xüsusilə vergi və gömrük orqanlarının fəaliyyətində aparılan islahatlar, bu sahədə şəffaflığın artırılması öz nəticələrini verməkdədir. Qısa müddətdə həmin orqanlar vasitəsilə büdcəyə daxilolmalar külli miqdarda artıb, bu, son nəticədə vətəndaşların güzəranının yaxşılaşmasına xidmət edib, bir çox sosial məsələlərin həllinə imkan yaranıb.

Bu bir həqiqətdir ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik ənənələrini uğurla davam etdirən, ona daim müasirlik, yenilik gətirən Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və müdrik siyasəti möhkəm elmi əsaslara söykənir, dərin araşdırmalar əsasında qurulur, bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsində də islahatlar düşünülmüş surətdə və müəyyənləşdirilmiş proqramlara uyğun aparılır.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"ya uyğun olaraq 2019-cu ildə müəyyən edilmiş bir sıra tədbirləri, o cümlədən bu Strategiyanın icrası üzrə Fəaliyyət Planını qeyd etmək lazımdır. Bu plan əsasında müvafiq dövlət qurumları tərəfindən dövlət orqanlarının kateqoriya və iyerarxiyasının müəyyən edilməsi, bu orqanların struktur bölmələrinin növləri və yaradılması qaydası, dövlət qulluğu vəzifələrinin növləri, təsnifatları və vəzifə adları, rəhbər vəzifəli şəxslər üçün insan resurslarının idarə edilməsi üzrə təlim modullarının və proqramlarının hazırlanması, kadr qurumlarının işçilərin sayına mütənasib olaraq təşkili, bu qurumların nümunəvi əsasnaməsinin hazırlanması, dövlət qulluqçularının peşəkar inkişafı və təhsili, onların məlumat bazalarının və reyestrinin yaradılması, dövlət qulluqçularına bərabər tutulan publik hüquqi şəxslərin əməkdaşlarının, statusunun müəyyən edilməsi və digər məsələlər öz həllini tapır və tapacaqdır. Müvafiq sənəddə bu sahədə hər bir dövlət qurumunun vəzifələri konkret müəyyənləşdirilərək lazımi tapşırıqlar verilib.

Dövlət qulluğu sahəsində aparılan islahatlar dövlət qulluqçularının məsuliyyətini gündən-günə artırmaqla yanaşı, onların hüquqlarının və vəzifələrinin müəyyənləşdirilməsi, bu sahədə olan boşluqların aradan qaldırılması üçün də müntəzəm iş aparılır. Bu cəhətdən "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli Fərmanı üzərində bir qədər ətraflı dayanmaq istərdik. Bu sənəd dövlət qulluqçularının hüquqlarının qorunmasında və məsuliyyətinin artırılmasında mühüm rol oynayacaqdır. Bu nümunədə tərəflər haqqında məlumat, əmək müqaviləsinin müddətləri, dövlət qulluqçusunun əmək funksiyaları, qulluq şəraitinə, dövlət məvacibinə, əməyin mühafizəsinə, iş və istirahət vaxtına, məzuniyyətə, bədən tərbiyəsi və idmana dair şərtlər, birinin digərinə vurduğu ziyana görə tərəflərin qarşılıqlı maddi məsuliyyəti, sosial müdafiə məsələləri, mülkiyyət münasibətlərinin tənzimlənməsi, əmək müqaviləsində dəyişiklik edilməsi və ona xitam verilməsi barədə müddəalar vardır. Bu müqavilədə müəyyən edilən bütün hüquqlar dövlət qulluğuna dair normativ hüquqi aktların müvafiq maddələrinə istinad edilərək əsaslandırılır.

Bunlardan iş və istirahət vaxtına dair şərtlər diqqəti daha çox cəlb edir. "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində göstərilmiş dövlət qulluqçularının iş vaxtı istisna olmaqla, qulluq üçün zəruri olduqda, dövlət orqanının rəhbərinin müstəsna halda iş vaxtının ayda əvəzi ödənilmədən 5 saata qədər artıra bilməsi, 5 saatdan çox artırdığı təqdirdə isə hər əlavə iş saatı üçün vəzifə maaşının ikiqat məbləğindən az olmamaqla əməkhaqqı verilməsi nəzərdə tutulub.

Azərbaycanda dövlət qulluqçularının daha səmərəli fəaliyyət göstərməsini və onlara tapşırılan mürəkkəb vəzifələrin daha yaxşı yerinə yetirilməsini təmin etmək üçün bu kateqoriyadan olan insanların sosial müdafiəsinin yaxşılaşdırılması da ölkə Prezidentinin daim diqqət göstərdiyi məsələlərdən biridir. Elə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il iyunun 18-də imzaladığı Fərman və sərəncamlarla minimum əməkhaqqının 250 manata çatdırılması, demək olar ki, bütün mərkəzi və yerli dövlət orqanlarının və onlara bərabər tutulan orqanların, habelə güc strukturlarının, hərbi qulluqçuların, eləcə də digər büdcə təşkilatları işçilərinin əməkhaqlarının 40 faiz artırılması hamını, o cümlədən dövlət qulluğunda çalışan insanları son dərəcə sevindirib və təbiidir ki, daha yaxşı çalışmağa ruhlandırıb. Qeyd olunmalıdır ki, bu artımlar respublikada orta əməkhaqqının və pensiyaların miqdarına da müsbət təsir göstərib, bütövlükdə 2 milyona qədər vətəndaşı əhatə edib və bunun üçün büdcədən 1 milyard manata yaxın vəsait ayrılıb.

Ölkənin idarə olunmasında və inkişafının gücləndirilməsində ciddi rol oynayan dövlət qulluqçularının sayı da həmişə diqqəti cəlb edən məsələlərdən biridir. İlk baxışda onların sayı çox görünsə də, əslində, heç də belə deyildir. 2019-cu il yanvarın 1-nə olan məlumata görə, hazırda ölkədə dövlət qulluqçularının sayı 29 min 127 nəfərdir. Aparılan islahatlar nəticəsində dövlət qulluqçularının sayı 0,7 faiz azalıb. Ümumiyyətlə, dövlət qulluqçularının 28,5 faizini qadınlar təşkil edir.

Dövlət qulluqçularının yaş qrupları üzrə bölgüsü göstərir ki, bu sahədə çalışanların orta yaş həddi 43 ildir. 35-44 yaşda olan dövlət qulluqçuları 26,3 faiz təşkil edirsə, 63-64 yaşda olanlar cəmi 2,9 faizdir. Bu rəqəmlər gənclər üçün zəngin təcrübə məktəbindən bəhrələnmək imkanı olduğunu sübut edir.

Bütövlükdə Azərbaycanda dövlət qulluqçuları ölkənin məşğul əhalisinin çox cüzi bir hissəsini - 0,6 faizini təşkil edir. Bu rəqəm digər ölkələrlə müqayisədə xeyli azdır. Odur ki, bu sahədə çalışanların hazırlıq səviyyəsinin və iş keyfiyyətlərinin yüksək olması çox vacibdir. Yalnız yüksək peşəkarlıqla, dərin biliklə, kreativ düşüncə tərzi ilə, ən başlıcası Vətənə, xalqa, dövlətə sədaqət hissi ilə bu çətin və məsuliyyətli işin öhdəsindən gəlmək mümkündür.

Azərbaycanda dövlət qulluğunun təşkili prinsiplərindən danışarkən, sözsüz ki, ilk növbədə, onun məqsəd və vəzifələri üzərində dayanmaq lazımdır. Ümumiyyətlə, ölkə Prezidentinin siyasətinin sosialyönümlü olduğunu və dövlətlə vətəndaşlar arasında münasibətlərin sağlam zəmində qurulduğunu, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının, onun maraqlarının və rifahının dayandığını xüsusi qeyd etmək vacibdir. Hər bir Azərbaycan vətəndaşı dərindən dərk edir ki, dövlət nə qədər güclü olarsa, onun həyatı o qədər təhlükəsiz, risksiz və rahat olar, maddi rifahı ildən-ilə yaxşılaşar. Vətəndaşlarla dövlətin ünsiyyəti bilavasitə dövlət qulluqçuları vasitəsilə həyata keçirildiyinə görə bu qarşılıqlı münasibətlərin gündən-günə yaxşılaşması və dövlət qulluqçularının, ilk növbədə, vətəndaşın mənafeyini düşünməsi vacib məsələdir.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, "Azərbaycanda vətənpərvərlik hissləri, dövlətçiliyə bağlılıq çox yüksək səviyyədədir. Ona görə vətəndaş dövlət qarşısında öz vəzifə borcunu yerinə yetirir və yetirməlidir. Eyni zamanda, dövlət də həmişə vətəndaşın yanında olmalıdır". Dövlət və vətəndaş münasibətlərinin ahəngdarlığını dövlətimizin başçısının çətin məqamlarda həmişə xalqın içində olmasında, Azərbaycan vətəndaşlarına arxa-dayaq olmasında aydın görmək mümkündür.

Son vaxtlar dövlət qulluğunun təşkilində yeni nüanslar və formalar, tamamilə yeni nümunələr özünü göstərməkdədir. Bu baxımdan bir çox dövlət orqanlarının vacib funksiyalarını ən müasir texnoloji vasitələrlə həyata keçirən "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan Prezidentinin bilavasitə təşəbbüsü ilə yaradılan bu qurum artıq bütün dünyada maraq doğurur və müasir idarəetmə kadrlarının yetişməsində və bu sahədə yüksək şəffaflığın təmin edilməsində çox vacib amilə çevrilməkdədir.

Gənc kadrların idarəçilik məktəbinə çevrilən bu mərkəzlərdə gənclər çox zəngin təcrübə toplayır və özlərinə gələcək həyat vəsiqəsi qazanırlar. Hazırda respublikada fəaliyyət göstərən 15 "ASAN xidmət" mərkəzi ilə yanaşı, daha 5-i yaradılmaqdadır.

Hələ 2015-ci ildə bu xidmətin uğurlu fəaliyyəti BMT-nin Dövlət Xidmətləri mükafatına layiq görülüb və həmin dövrdən öz fəaliyyət diapazonunu daha da genişləndirərək əsl Azərbaycan brendinə çevrilib. BMT-nin bir neçə ölkədə keçirdiyi forumlarda barəsində geniş söhbət açılan bu xidmətin təcrübəsi çoxlarına örnək kimi təqdim edildiyinə görə BMT-nin Dövlət Xidmətləri Günü münasibətilə 2003-cü ildən etibarən hər il keçirilən Dövlət Xidmətləri Forumu bu il iyunun 24-dən 26-dək Bakıda təşkil olunacaq və bu Forumda BMT Baş katibinin müavini Lui Zemin, dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndə iştirak edəcəkdir. Heydər Əliyev Mərkəzində baş tutacaq bu tədbir Azərbaycanın və onun dövlətçiliyinin uğurlarının nümayişinə çevriləcəkdir.

Görülən bütün tədbirlər Azərbaycanın daha yaxşı inkişafına, ölkədə daha mükəmməl idarəetmə sistemi yaradılmasına, eyni zamanda, xalq-iqtidar birliyinin, sabitliyin qorunmasına və bunun bütün xalqın məqsəd və məramına çevrilməsinə xidmət edir və edəcəkdir.

# BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində "ASAN Beynəlxalq Assosiasiyası təsis olunacaq

İyunun 24-dən 26-dək Bakıda Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumu keçiriləcək. Forum dövlət xidmətlərinin göstərilməsi sahəsində ölkəmizdə təşkil olunacaq ilk BMT tədbiridir.



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev iyunun 20-də keçirilən



mətbuat konfransında deyib.

Forumun təşkilati məsələləri ilə əlaqədar məlumat verən agentliyin sədri 2003-cü ildən etibarən keçirilən tədbirin məqsədinin dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual olan məsələlər üzrə müzakirələrin aparılması, habelə bu istiqamətdə qabaqcıl təcrübələrin mübadiləsi olduğunu deyib: **"Forumun Azərbaycanda keçirilməsinə zəmin yaradan ən önəmli amillər ölkəmizdə dövlət xidmətləri sahəsində qazanılmış nailiyyətlər, "ASAN xidmət"in uğurlu fəaliyyəti və 2015-ci ildə BMT-nin Dövlət Xidmətləri mükafatına layiq görülməsidir. Forumda BMT-yə üzv ölkələrin dövlət idarəçiliyi və dövlət xidmətləri üzrə nazirlərinin, yerli idarəetmə orqanlarının, akademik dairələrin və özəl sektorun rəhbər şəxslərinin, ümumilikdə 500-ə yaxın nümayəndənin iştirakı gözlənilir. Forum çərçivəsində qonaqlara "MyGov", "Asan İmza", "ASAN Viza", "ASAN ödəniş" , "ABAD" barədə məlumat veriləcək, "ASAN xidmət" mərkəzlərini real şəkildə təqdim etmək imkanımız olacaq. Əminik ki, bu, "ASAN xidmət"in daha geniş arealda yayılmasına ciddi töhfə olacaq. Forum çərçivəsində dövlət xidmətləri göstərən qurumların "ASAN Beynəlxalq Assosiasiyası" təsis olunacaq. Assosiasiyanın yaradılmasında əsas məqsəd "ASAN xidmət" standartları əsasında təcrübə mübadiləsi aparmaq, ekspertlər şurasını yaratmaq, onlar vasitəsilə ayrı-ayrı ölkələrdə dövlət xidmətlərini qiymətləndirmək, bu ölkələrin uğurlu həllərinin digər ölkələrdə tətbiqinə nail olmaqdır. Bu assosiasiya Azərbaycan təşəbbüsü ilə yaradılacaq. İlk olaraq 8 ölkənin birgə təşəbbüsü ilə protokol imzalanacaq. Belə ki, Monteneqro, İndoneziya, Mərakeş, Əfqanıstan, Uqanda, Türkiyə və Birləşmiş Ərəb Əmirlikləri ilkin təsisçilər qismində assosiasiyaya qoşulacaqlar. Lakin ölkələrin sayı arta da bilər, çünki müraciətlər var və baxılır".**

Ü.Mehdiyev bildirib ki, tədbir müxtəlif plenar sessiyalar, seminar və paralel tədbirlərdən ibarət olacaq. Eyni zamanda, 5 fərqli kateqoriya üzrə BMT Dövlət Xidmətləri Mükafatının builki qaliblərinin təltif olunması, agentlik ilə xarici ölkələrin bir sıra qurumları arasında əməkdaşlığa dair müqavilələrin imzalanması planlaşdırılır: **"Forum zamanı, həmçinin "Heç kim kənarda qalmadan inklüziv və bərabər xidmətlərin göstərilməsi", "Dövlət sektorunda əlaqələndirilmiş yanaşmaların təmin olunması", "Effektiv və məsuliyyətli dövlət qurumlarının inkişafı", "Dayanıqlı İnkişaf Məqsədləri üçün Rəqəmsal Transformasiyaya keçid", "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün gender əsaslı dövlət xidmətlərinin təşviqi" kateqoriyaları üzrə 11 ölkənin - Avstriya, Avstraliya, Argentina, Braziliya, Koreya Respublikası, İndoneziya, Portuqaliya, Çili, Tailand, Kosta-Rika, Keniyanın mükafatlandırılması mərasimi olacaq. Bununla yanaşı, forum çərçivəsində Türkiyə ilə ikitərəfli sazişlər imzalanacaq".**

Agentliyin sədri Ermənistanın Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumunda iştirak etməyəcəyini də diqqətə çatdırıb.BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində "ASAN Beynəlxalq Assosiasiyası təsis olunacaq

İyunun 24-dən 26-dək Bakıda Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumu keçiriləcək. Forum dövlət xidmətlərinin göstərilməsi sahəsində ölkəmizdə təşkil olunacaq ilk BMT tədbiridir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev iyunun 20-də keçirilən mətbuat konfransında deyib.

Forumun təşkilati məsələləri ilə əlaqədar məlumat verən agentliyin sədri 2003-cü ildən etibarən keçirilən tədbirin məqsədinin dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual olan məsələlər üzrə müzakirələrin aparılması, habelə bu istiqamətdə qabaqcıl təcrübələrin mübadiləsi olduğunu deyib: **"Forumun Azərbaycanda keçirilməsinə zəmin yaradan ən önəmli amillər ölkəmizdə dövlət xidmətləri sahəsində qazanılmış nailiyyətlər, "ASAN xidmət"in uğurlu fəaliyyəti və 2015-ci ildə BMT-nin Dövlət Xidmətləri mükafatına layiq görülməsidir. Forumda BMT-yə üzv ölkələrin dövlət idarəçiliyi və dövlət xidmətləri üzrə nazirlərinin, yerli idarəetmə orqanlarının, akademik dairələrin və özəl sektorun rəhbər şəxslərinin, ümumilikdə 500-ə yaxın nümayəndənin iştirakı gözlənilir. Forum çərçivəsində qonaqlara "MyGov", "Asan İmza", "ASAN Viza", "ASAN ödəniş" , "ABAD" barədə məlumat veriləcək, "ASAN xidmət" mərkəzlərini real şəkildə təqdim etmək imkanımız olacaq. Əminik ki, bu, "ASAN xidmət"in daha geniş arealda yayılmasına ciddi töhfə olacaq. Forum çərçivəsində dövlət xidmətləri göstərən qurumların "ASAN Beynəlxalq Assosiasiyası" təsis olunacaq. Assosiasiyanın yaradılmasında əsas məqsəd "ASAN xidmət" standartları əsasında təcrübə mübadiləsi aparmaq, ekspertlər şurasını yaratmaq, onlar vasitəsilə ayrı-ayrı ölkələrdə dövlət xidmətlərini qiymətləndirmək, bu ölkələrin uğurlu həllərinin digər ölkələrdə tətbiqinə nail olmaqdır. Bu assosiasiya Azərbaycan təşəbbüsü ilə yaradılacaq. İlk olaraq 8 ölkənin birgə təşəbbüsü ilə protokol imzalanacaq. Belə ki, Monteneqro, İndoneziya, Mərakeş, Əfqanıstan, Uqanda, Türkiyə və Birləşmiş Ərəb Əmirlikləri ilkin təsisçilər qismində assosiasiyaya qoşulacaqlar. Lakin ölkələrin sayı arta da bilər, çünki müraciətlər var və baxılır".**

Ü.Mehdiyev bildirib ki, tədbir müxtəlif plenar sessiyalar, seminar və paralel tədbirlərdən ibarət olacaq. Eyni zamanda, 5 fərqli kateqoriya üzrə BMT Dövlət Xidmətləri Mükafatının builki qaliblərinin təltif olunması, agentlik ilə xarici ölkələrin bir sıra qurumları arasında əməkdaşlığa dair müqavilələrin imzalanması planlaşdırılır: **"Forum zamanı, həmçinin "Heç kim kənarda qalmadan inklüziv və bərabər xidmətlərin göstərilməsi", "Dövlət sektorunda əlaqələndirilmiş yanaşmaların təmin olunması", "Effektiv və məsuliyyətli dövlət qurumlarının inkişafı", "Dayanıqlı İnkişaf Məqsədləri üçün Rəqəmsal Transformasiyaya keçid", "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün gender əsaslı dövlət xidmətlərinin təşviqi" kateqoriyaları üzrə 11 ölkənin - Avstriya, Avstraliya, Argentina, Braziliya, Koreya Respublikası, İndoneziya, Portuqaliya, Çili, Tailand, Kosta-Rika, Keniyanın mükafatlandırılması mərasimi olacaq. Bununla yanaşı, forum çərçivəsində Türkiyə ilə ikitərəfli sazişlər imzalanacaq".**

Agentliyin sədri Ermənistanın Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Forumunda iştirak etməyəcəyini də diqqətə çatdırıb.

# Yeni Azərbaycan Partiyasının və Sumqayıt şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Gənclərin Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda forum keçirilib



İyunun 19-da Yeni Azərbaycan Partiyasının (YAP) və Sumqayıt şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Sumqayıtdakı Heydər Əliyev Mərkəzində "Gənclərin Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda forum keçirilib.

BMT-nin elan etdiyi 17 Dayanıqlı İnkişaf Məqsədinin (DİM) təmin olunması istiqamətində görülən işlərə töhfə vermək məqsədi daşıyan forum iştirakçıları əvvəlcə müstəqil Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin abidəsinin önünə tər gül dəstələri düzərək, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi, forumun moderatoru Hüseyn Hüseynov bildirib ki, BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında 25-27 sentyabr 2015-ci il tarixində Minilliyin İnkişaf Məqsədlərinin davamı olaraq 17 dayanıqlı inkişaf məqsədi, 169 hədəf və 231 göstəricini özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə dair qərar qəbul olunub. Sənəd "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlanır və Azərbaycan da daxil olmaqla 193 ölkə tərəfindən qəbul olunmuş qlobal sənəddir: **"Sənəd davamlı inkişafın 3 müxtəlif aspektini əhatə edir: iqtisadi, sosial və ətraf mühit məsələləri. Hər bir sahə üzrə bütün dünyada qlobal səviyyədə qəbul olunmuş hədəf və göstəricilər müəyyənləşdirilib. Dayanıqlı İnkişaf Məqsədləri Minilliyin İnkişaf Məqsədləri ilə müqayisədə daha geniş və qlobal sənəddir. 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik 3 əsas prinsip üzərində qurulub. Bunlardan birincisi universallıq prinsipi adlanır. Bu prinsipin təkcə inkişaf etməkdə olan ölkələr üçün deyil, bütün dünya ölkələrinə tətbiq edilməsi nəzərdə tutulur. Bu çərçivədə bütün inkişaf kateqoriyasına aid olan ölkələr - istər inkişaf etmiş, istər inkişaf etməkdə olan, istərsə də aşağı inkişaf kateqoriyasına aid olan ölkələr üçün spesifik hədəflər müəyyənləşdirilib. Digər prinsip inteqrasiyalı yanaşma prinsipidir. Bu, bəhs olunan və digər strateji sənədlər çərçivəsində qəbul edilmiş məqsəd və hədəflərin bir-biri ilə uzlaşması məsələsini əks etdirir. BMT tərəfindən qəbul olunmuş bir sıra sənədlər dayanıqlı inkişaf məqsədlərinin hədəfləri ilə uyğunluq təşkil edir. Bu sənədlərin icrası, eyni zamanda, BMT tərəfindən qəbul edilmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də öz əksini tapmış hədəf və məqsədlərə nail olunması ilə nəticələnəcəkdir. Digər bir yanaşma isə - "heç kimin geridə qalmaması" prinsipi ilə ifadə olunur".**

H.Hüseynov bildirib ki, forum dayanıqlı inkişafın 3, 5 və 9-cu məqsədlərinə həsr olunub. Belə ki, 3-cü məqsəd "Bütün yaşlarda hamı üçün sağlam yaşayışı təmin etmək və rifahı təşviq etmək", 5-ci məqsəd "Gender bərabərliyinə nail olmaq və bütün qadınların və qızların səlahiyyətlərini genişləndirmək" və 9-cu məqsəd isə "Möhkəm infrastruktur qurmaq, inklüziv və dayanıqlı sənayeləşdirməni təşviq etmək və innovasiyaları həvəsləndirmək" məsələləri idi.





Forumun 1-ci panelində səhiyyə nazirinin müavini Elsəvər Ağayev, Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova və Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov məqsədlərə dair çıxışlar ediblər.










Panellər arasında Dayanıqlı İnkişaf Məqsədlərindən bəhs edən videoçarx nümayiş olunub.

2-ci paneldə isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva, YAP Siyasi Şurasının üzvü, YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, Milli Məclisin deputatı Tahir Mirkişili və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Komitəsi sədrinin müavini Ceyhun Salmanov çıxışlar ediblər.

Tədbirdə gəncləri maraqlandıran suallar cavablandırılıb.

# Milli Məclisdə Avropa Şurasının layihə rəhbəri ilə görüş olub

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı iyunun 18-dən 21-dək Azərbaycanda faktaraşdırıcı səfərdə olan Avropa Şurasının baş layihə rəhbəri Naomi Trevinnardın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə AZƏRTAC-a Ailə, qadın və uşaq məsələləri komitəsindən məlumat verilib.



Görüşdə bildirilib ki, bu səfər Avropa Şurasının "Avropada uşaqların onlayn istismarı və aldadılması" layihəsi çərçivəsində həyata keçirilir.

Söhbət zamanı Azərbaycanda uşaqların onlayn istismarı və aldadılması ilə bağlı müvafiq qanunvericilik, siyasət və təcrübə sahəsində boşluqların təhlili ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Sahibə Qafarova, Avropa Şurasının layihə rəhbəri Ovidiu Majina və layihənin eksperti Mark Kameron da iştirak edib.

# Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin prioritetlərindən biridir

*Təhsil işçiləri Prezident İlham Əliyevin bu günlərdə imzaladığı müvafiq sərəncamları əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində atılan inqilabi addımların davamı kimi qiymətləndirirlər*



***Fərqanə Abbasova:***
*Azərbaycanda həyata keçirilən təhsil islahatları və təhsil işçilərinin sosial rifah halının yaxşılaşdırılması sahəsində görülən işlər davamlı xarakter daşıyır*



***Təranə Rzayeva:***
*Dövlət başçısının əməkhaqlarının artırılması ilə bağlı müvafiq sərəncamları ölkənin bütün pedaqoji kollektivi üçün sevindirici bir xəbərdir*



***Sədaqət Şükürova:***
*Prezident İlham Əliyev tərəfindən müəllimlərin əməyinə yüksək qiymət verilir, bu peşə sahiblərinin sosial rifahının daha da yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirilir*



***Zaur Müslümov:***
*Həm işlədiyim məktəbin kollektivi, həm də ümumilikdə böyük müəllim ordusu adından daim təhsilin və təhsil işçilərinin qayğısına qaldığı üçün dövlət başçımıza təşəkkürümü bildirirəm*

Məlum olduğu kimi, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasət, həmçinin sosial müdafiə sahəsində atılan mühüm addımlar əhalinin bütün kateqoriyalarını, o cümlədən müəllimləri də əhatə edir. Dövlət başçısının iyunun 18-də imzaladığı "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" və "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında" sərəncamlar isə bu istiqamətdə atılan növbəti mühüm addımdır.

Xatırladaq ki, "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" Sərəncama əsasən həmin müəllimlərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılacaq. Sərəncam ümumilikdə 160 minə yaxın müəllimi əhatə edir və onların orta aylıq əməkhaqqının 605 manata çatmasına imkan verir. Artımın təmin edilməsi üçün dövlət büdcəsindən əlavə olaraq illik 240 milyon manat, bu il (sentyabr-dekabr ayları) üzrə isə 73 milyon manat vəsait ayrılacaq.

Prezident İlham Əliyevin "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında" Sərəncamı isə həmin təbəqədən olan müəllimlərin və işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılmasını nəzərdə tutur.

Beləliklə, "Yeni Azərbaycan" qəzeti olaraq, sözügedən sərəncamlarla bağlı Bakı şəhərində və regionlarda fəaliyyət göstərən müəllimlərin fikirlərini öyrəndik. Qeyd edək ki, təhsil işçiləri son sərəncamları əhalinin rifahının yaxşılaşdırılması istiqamətində atılan inqilabi addımların davamı kimi qiymətləndirirlər.

Məsələn, Sabunçu rayonu Fikrət Tağıyev adına 72 nömrəli məktəb-liseyin direktoru Fərqanə Abbasova deyib ki, Azərbaycanda həyata keçirilən təhsil islahatları və təhsil işçilərinin sosial rifah halının yaxşılaşdırılması sahəsində görülən işlər davamlı xarakter daşıyır. Onun sözlərinə görə, bir neçə gün öncə dövlət başçısı tərəfindən imzalanan yeni sərəncamlar da bunu bir daha təsdiqləyir: **"Çox sevinirik ki, zəhmətimiz daim qiymətləndirilir. Biz müəllimlər hər zaman dövlətimizin diqqət və qayğısını öz üzərimizdə hiss edirik. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bu mühüm amilin dövlət siyasətinin mühüm strateji istiqamətlərindən biri olduğunu bir daha təsdiqləyir".**

F.Abbasova deyib ki, bu gün elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara daim qayğı göstərilməsi, cəmiyyətdə alimlərin, elm və təhsil işçilərinin nüfuzunun artırılması istiqamətində bir sıra mühüm qərarların qəbul edilməsi dövlətin müəyyənləşdirdiyi təhsil strategiyasının tələbidir: **"Biz də çalışırıq ki, şagirdlərimizdə milli və vətənpərvərlik ruhunun daha da gücləndirilməsi, mənəvi dəyərlərin təbliği istiqamətində müxtəlif tədbirlər həyata keçirək. Həmçinin gənclərimizi dərin və hərtərəfli biliyə, bacarığa, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşünə malik şəxsiyyətlər kimi yetişdirməyə çalışırıq".**

Səbail rayonu 189-190 nömrəli məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Təranə Rzayeva isə öncə Ulu Öndər Heydər Əliyevin "Mən dünyada müəllimdən şərəfli ad tanımıram" kəlamını xatırladıb. O deyib ki, insanın taleyi, gələcəyi, öz ailəsinə, cəmiyyətə, dövlətə xidməti valideynlərin verdiyi tərbiyə ilə yanaşı, məktəbin və müəllimlərin verdiyi bilik və vərdişlərdən də bilavasitə asılıdır. Bu baxımdan müəllimlər, sözün həqiqi mənasında, həm insanın, həm cəmiyyətin, həm də dövlətin inkişafında çox mühüm vəzifəni yerinə yetirirlər.

Təranə Rzayeva əlavə edib ki, Azərbaycanda müəllimlərin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür: **"Ölkədə davamlı olaraq aparılan məktəb tikintisi, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi nəticəsində əməkhaqqı artımı, işə qəbulun şəffaf təşkili bu peşəyə marağı ilbəil artırır".**

Onun sözlərinə görə, dövlət başçısının əməkhaqlarının artırılması ilə bağlı müvafiq sərəncamları ölkənin bütün pedaqoji kollektivi üçün sevindirici bir xəbərdir: **"Bu artım ilk dəfə deyil, inanırıq ki, son da olmayacaq. Deyə bilərəm ki, məzuniyyət öncəsi bizim üçün sürpriz oldu. Xoş təəssüratla yay tətilinə ayrılırıq. Növbəti tədris ilinə güc toplayıb, bizə göstərilən bu etimadı nəzərə alıb daha böyük səylə çalışacağıq".**

Yuxarıda da qeyd etdiyimiz kimi, dövlət başçısının son sərəncamları paytaxtla yanaşı, region müəllimləri tərəfindən də sevinclə qarşılanıb. Ümumi qənaət budur ki, istər müvafiq sərəncamların imzalanması, istərsə də paytaxt və rayon mərkəzləri ilə yanaşı, ən ucqar yaşayış məntəqələrində də müasir məktəb binalarının tikilməsi, mövcud məktəblərin təmir edilməsi və ya yenidən qurulması təhsilə göstərilən diqqət və qayğının bariz göstəricisidir.

Öz növbəsində Yevlax şəhəri 2 nömrəli tam orta məktəbin direktoru Sədaqət Şükürova Azərbaycanda bütün sahələr kimi, təhsil sahəsinə də dövlət tərəfindən diqqət və qayğı göstərildiyini deyib. Onun sözlərinə görə, Prezident İlham Əliyev tərəfindən müəllimlərin əməyinə yüksək qiymət verilir, bu peşə sahiblərinin sosial rifahının daha da yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirilir.

Sədaqət Şükürova bildirib ki, ölkəmizdə müvafiq sahədə həyata keçirilən tədbirlər təhsilin inkişafının dövlət siyasətinin əsas prioritetlərindən olduğunu bir daha təsdiqləyir: **"Bu prosesi nəinki paytaxtda, həm də bölgələrdə, o cümlədən Yevlax rayonunda aydın müşahidə etmək mümkündür. Ölkəmizdə təhsil sistemində geniş islahatların aparılması və yüksək demokratik dəyərlərin əsas götürülməsi, təhsil işçilərinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması, ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi bizi ürəkdən sevindirir, eyni zamanda, daha böyük məsuliyyət hissi ilə işləməyə sövq edir".**

**"Dövlət başçısı tərəfindən müvafiq sərəncamların imzalanması təhsilin inkişafına yönələn siyasətin bariz nümunəsidir. Bu, bir daha təhsilin inkişafının diqqət mərkəzində olduğunu təsdiqləyir. Biz müəllimlər də çalışacağıq ki, öz işimizlə dövlətimizin qayğısına layiqincə cavab verək, şagirdlərin, yetişdirdiyimiz gənc nəslin xalqımız üçün yararlı vətəndaş kimi böyümələri üçün üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gələk".**

Bu fikirləri isə Şəki şəhəri 11 saylı tam orta məktəbin tarix müəllimi Zaur Müslümov qəzetimizə açıqlamasında söyləyib. Onun sözlərinə görə, təhsilə və müəllimlərə qayğı xalqımızın savadlı gələcəyinə yatırım deməkdir: **"Həm işlədiyim məktəbin kollektivi, həm də ümumilikdə böyük müəllim ordusu adından daim təhsilin və təhsil işçilərinin qayğısına qaldığı üçün dövlət başçımıza təşəkkürümü bildirirəm".**

Zaur Müslümov onu da bildirib ki, çalışdığı 11 saylı tam orta məktəb üçün 960 şagird yerlik yeni binanın tikintisinə başlanılıb. Prezident İlham Əliyevin ötən il oktyabrın 29-da imzaladığı Sərəncama əsasən inşa edilən yeni məktəb binasının tikintisi üçün Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 1 milyon manat ayrılıb.

**Müşfiqə BAYRAMLI**

# Dövlət müəssisələrinin korporativ idarə edilməsinə dair müzakirələr aparılıb



Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Bilik əsaslı iqtisadiyyatda institusional amillər: Dövlət müəssisələrinin korporativ idarə edilməsi" mövzusunda II forum keçirilib.

Forum Bilik İqtisadiyyatı UNEC Tədqiqat və Empirik Tədqiqatlar mərkəzlərinin birgə təşkilatçılığı, Dünya Bankının Azərbaycan üzrə nümayəndəliyinin dəstəyi ilə təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən UNEC-in rektoru, professor Ədalət Muradov müasir dövrdə korporativ idarəetmənin müəssisələrin səmərəli fəaliyyətindəki rolunu vurğulayıb. Rektor qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasət müsbət nəticələr verir. İqtisadi inkişafın dayanıqlığının təmin edilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində islahatlar uğurla davam edir. Həmin islahatların vacib elementlərindən biri ölkə iqtisadiyyatında mühüm rol oynayan dövlət müəssisələrinin idarəetməsinin təkmilləşdirilməsi ilə bağlıdır.

**"Dünyanın bir çox ölkələrində dövlət müəssisələri ölkə iqtisadiyyatında, ümumi daxili məhsulun istehsalında, investisiyalarda, məşğulluqda böyük rol oynayır. Dövlət müəssisələri özəl sektorla müqayisədə bir sıra hallarda rəqabətədavamlı olmur. Forumun əsas müzakirə predmeti ölkə iqtisadiyyatına faydalılığı baxımından dövlət müəssisələrinin özəlləşdirilməsi və ya onların idarəetməsinin təkmilləşdirməsidir",** - deyə rektor qeyd edib.

Ədalət Muradov müzakirələrin nəticəsi olaraq tövsiyə xarakterli akademik təkliflər hazırlanacağını bildirib.

Bilik İqtisadiyyatı Tədqiqat Mərkəzinin direktoru, dosent Altay İsmayılov UNEC-də Universitet-Dövlət-Sənaye (UDS) platformasının yaradıldığı barədə məlumat verib. Bildirib ki, platformanın yaradılmasında məqsəd akademik mühitin formalaşdırılmasıdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin direktoru Vüsal Qasımlı dövlət müəssisələrinin korporativ standartlarının tətbiqi ilə bağlı tədbirlər planına ehtiyac olduğunu bildirib. O, UNEC-də yaradılan "Universitet-Sənaye-Dövlət" üçbucağının vəhdətində bu cür müzakirələr aparılmasının faydalı olacağını bildirib.

Sonra Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Navid Həsən Naqvi dövlət müəssisələrində korporativ idarəetmənin əhəmiyyətindən danışıb. Qeyd edib ki, xarici və daxili investorlar əsasən ölkə iqtisadiyyatında maliyyə vəsaitlərinin idarə olunmasına və dövlət müəssisələrindəki şəffaflığa önəm verir. N.Naqvi dövlət müəssisələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı konsensusun əldə olunmasının vacibliyini vurğulayıb.

Tədbirdə Dünya Bankının Gürcüstan nümayəndəliyinin mütəxəssisi İrina Gordeladze "Dövlətin dövlət müəssisələrinin direktorlar şurası və rəhbərliyi ilə münasibətləri", Dünya Bankının mütəxəssisi Tural Camalov "Dövlət müəssisələrində maliyyə intizamı", UNEC Empirik Tədqiqatlar Mərkəzinin direktoru Xətai Alıyev "Dövlət müəssisələrində idarəetmə keyfiyyətinin fiskal dayanıqlılığa təsiri" mövzularında çıxış ediblər.

Sonda suallar cavablandırılıb.

# Ermənistan və erməni lobbisi növbəti dəfə fiasko ilə üzləşdi

*"Dostluq xartiyaları"nın ləğv edilməsi Azərbaycanın həm hüquqi müstəvidə, həm də beynəlxalq siyasi və iqtisadi təsir imkanları vasitəsilə istənilən qeyri-qanuni, anti-Azərbaycan xarakterli addımların qarşısını almaq iqtidarında olduğunu bir daha nümayiş etdirdi*



Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Hazırda Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında mütəmadi yüksəlişə malikdir.

O da xüsusi vurğulanmalıdır ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində çoxşaxəli fəaliyyət göstərir, qətiyyətli - prinsipial mövqeyini davam etdirir. Bunun qanunauyğun nəticəsi kimi, beynəlxalq səviyyədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin vacibliyi daim vurğulanır. Daha dəqiq desək, Azərbaycanın ədalətli mövqeyi beynəlxalq müstəvidə dəstəklənir.

Bütün bunlara baxmayaraq, Ermənistan müxtəlif xarakterli manipulyasiyalarla, həmçinin təxribat xarakterli addımlarla danışıqlar prosesini pozmağa, məsuliyyətdən yayınmağa çalışır. Danışıqların formatının dəyişdirilməsi ilə əlaqədar cəfəng fikirlərin səsləndirilməsi, Dağlıq Qarabağdakı separatçı rejimin tanıdılması cəhdləri kimi səylər bu baxımdan xüsusi vurğulanmalıdır. Amma bu cür cəhdlər heç bir nəticə vermir, Ermənistanın manipulyasiya və təxribat xarakterli addımları fiasko ilə nəticələnir. Elə Fransa məhkəmələrində Dağlıq Qarabağdakı separatçı rejimlə bu ölkənin şəhərləri arasında imzalanmış dostluq xartiyalarının ləğv edilməsi də bu qəbildən olan nümunələr sırasındadır. Xatırladaq ki, Fransanın Serji-Pontuaz məhkəməsi bu ölkənin Arnuvill şəhəri (Val Duaz departamenti, Parisin ətrafı) ilə Azərbaycanın işğal altında olan Xocavənd rayonu arasında imzalanmış "Dostluq haqqında xartiya"nı ləğv edib. Məhkəmə 2018-ci il oktyabrın 22-də imzalanmış "sənəd"in qeyri-qanuni olduğu, heç bir hüquqi qüvvə daşımadığı və Fransanın beynəlxalq öhdəliklərinə zidd olması barədə qərar çıxarıb. Məlumata əsasən, işlə bağlı məhkəmə dinləmələri 2019-cu il fevralın 28-də başlanıb və mayın 29-da başa çatıb. Fransanın Serji-Pontuaz məhkəməsinin bəhs olunan qərarının ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də oxşar qərar çıxarılıb. Bütövlükdə, Fransa məhkəmələrinin çıxardığı qərarlar separatçı rejimin beynəlxalq miqyasda tanıdılması cəhdlərinin iflasa uğradığını göstərir.

Bu kontekstdə bir məqamı da xüsusi olaraq qeyd etmək gərəkdir. Belə ki, Fransa məhkəmələrində Dağlıq Qarabağdakı separatçı rejimlə bu ölkənin şəhərləri arasında imzalanmış dostluq xartiyalarının ləğv edilməsi Ermənistanda və erməni lobbisində ciddi narahatlıq yaradıb. Ermənilər də etiraf edirlər ki, bu, ilk növbədə Azərbaycanın beynəlxalq hüququn normalarına uyğun olaraq məsələni hüquqi müstəviyə çıxarması və bu istiqamətdə fəal iş aparmasının real nəticəsidir. Digər tərəfdən, ermənilər onu da etiraf etməyə məcburdurlar ki, Fransada erməni lobbisi nə qədər güclü olsa belə, ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransa neytrallıq saxlamağa məcburdur. Bununla yanaşı, beynəlxalq qanunvericilik sahəsində belə bir kobud qanun pozuntusuna heç bir, üstəlik, müstəqil olmayan məhkəmə də əsla bəraət qazandıra bilməz.

Başqa bir nüansa diqqət yetirmək vacibdir. Belə ki, bütün bunlar Azərbaycanın həm hüquqi müstəvidə, həm də beynəlxalq siyasi və iqtisadi təsir imkanları vasitəsilə istənilən qeyri-qanuni, anti-Azərbaycan xarakterli addımların qarşısını almaq iqtidarında olduğunu göstərir. Xüsusilə də, son illər ərzində Fransa Cənubi Qafqaz regionunun lider dövləti olan, yüksək beynəlxalq nüfuza malik Azərbaycanla müxtəlif sahələrdə əlaqələri, ən əsası, siyasi və iqtisadi münasibətləri gücləndirib. Şübhəsiz ki, bu amil prezident Makron başda olmaqla Fransa hakimiyyətinin mövqeyinə öz təsirini göstərməyə bilməz.

Yeri gəlmişkən, erməni əsilli Fransa politoloqu Gaids Minasyan da bu həqiqətləri etiraf edib. O, bütün baş verənlərə görə həm də Ermənistan və erməni lobbisinin məsuliyyət daşıdığını deyib. Bildirib ki, onların fəaliyyətində dəyişiklik olmayacağı təqdirdə bu proses davamlı xarakter daşıyacaq. Əlbəttə, bu məqam xüsusi önəm kəsb edir. Çünki radikal daşnakçı şəxs olan G.Minassianın anti-Azərbaycan və antitürk mövqedən çıxış etməsi sirr deyil. Onu da xatırlatmaq gərəkdir ki, "Le Monde" qəzetinin elektron versiyasında rəhbər işçilərdən biri olan bu şəxs Dağlıq Qarabağ münaqişəsi, Cənubi Qafqaz üzrə ekspert qismində çıxış edir. Fransada yaşasa da, tez-tez Ermənistana gedib-gəlir, aprel döyüşlərindən sonra Fransa mətbuatında Azərbaycana qarşı çirkin kampaniya təşkil edənlərdən biri olub. Bu faktlar öz növbəsində bir sıra məqamlardan xəbər verir. Əvvəla, bu, anti-Azərbaycan mövqeyi ilə tanınan, ölkəmizə qarşı qərəzli kampaniyanın təşkilatçılarından biri olan bu şəxsin bəhs olunan nüfuzlu nəşrdə aparıcı mövqelərdən birinə sahib olduğunu göstərir. Bu hal, heç şübhəsiz, nəşrin obyektivliyinə kölgə salır. Əlbəttə, bu nüans, eyni zamanda, həssas məqamlarda "Le Monde" qəzetinin Azərbaycana qarşı qərəzli mövqeyinin arxasında hansı məqamın durduğunu nümayiş etdirir.

Bütün hallarda ölkəmizə qarşı yönəlmiş spekulyativ və provakasiya xarakterli hərəkətlər heç bir nəticə vermir, Azərbaycan istənilən qeyri-qanuni xarakterli addımların qarşısını alır. Bunu mümkün edən isə Azərbaycanın yüksək beynəlxalq nüfuza - həm hüquq müstəvisində, həm də siyasi və iqtisadi platformada mühüm təsir imkanlarına malik olmasıdır.

**Nurlan QƏLƏNDƏRLİ**

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Regionlarda tütünçülüyün inkişafı istiqamətində atılan addımlar müsbət nəticəsini verir

*Kənd təsərrüfatında böyük potensiala malik, iqtisadi cəhətdən səmərəli olan, işçi qüvvəsi baxımından da böyük tələbatın olduğu tütünçülüyün inkişafı yeni iş yerlərinin açılmasına şərait yaradıb*






Azərbaycanda həyata keçirilən məqsədyönlü inkişaf strategiyası və islahatlar kursu ölkəmizin davamlı inkişafını təmin edib. Bu gün regionun lider ölkəsi olan Azərbaycanın inkişafını şərtləndirən əsas faktorlardan biri də respublikamızın regionlarının dinamik inkişafıdır. 2004-cü ildən icrasına başlanılan Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının uğurla həyata keçirilməsinin nəticəsidir ki, hazırda bütün şəhər və rayonlarımızda müasir standartlara cavab verən güclü infrastruktur formalaşdırılıb, əhalinin sosial müdafiəsinin təşkili istiqamətində effektiv tədbirlər görülüb, yüzminlərlə yeni iş yerləri yaradılıb, vətəndaşların gəlirləri əsaslı şəkildə artıb. Faktiki olaraq, Azərbaycanın regionları ölkə iqtisadiyyatının inkişafında lokomotiv rolunu oynayır. Bu isə həm də o reallığı ifadə edir ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs ölkəmizin inkişafını təmin etməklə, respublikamızın iqtisadi potensialının da artmasını şərtləndirib.

Azərbaycanın uğurlu inkişafını təmin edən əsas faktorlardan biri də, şübhəsiz ki, müasir dövrün çağırışlarına və geosiyasi, qlobal iqtisadi şəraitə uyğun praqmatik kursun müəyyənləşdirilməsi və ardıcıllıqla həyata keçirilməsidir. Bu mənada yeni iqtisadi şəraitdə aqrar sektorun üstün inkişafına nail olmaq da mühüm əhəmiyyət kəsb edir. Ərzaq təhlükəsizliyinin təmin olunması, ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi Azərbaycan dövlətinin aqrar sahədə həyata keçirdiyi tədbirlərin başlıca məqsədlərindən birini təşkil edir. Bu strateji məqsədə nail olmaq üçün regionların investisiya və infrastruktur təminatı möhkəmləndirilir, meliorativ tədbirlər görməklə dövriyyəyə yeni torpaqlar cəlb edilir, fermerlərə zəruri dəstək tədbirləri göstərilir. Həyata keçirilən bu və ya digər tədbirlər nəticəsində respublikamızda əhalinin meyvə-tərəvəzə olan tələbatının yerli istehsal hesabına təmin olunmasının səviyyəsinin 100 faizə yüksəlməsi məmnunluq doğurur. Bundan başqa, artıq ölkəmizdə heyvandarlıq məhsulları ilə özünütəminat səviyyəsi də 100 faizə çatmaq üzrədir.

Kənd təsərrüfatının inkişafı istiqamətində görülən tədbirlər sırasında kifayət qədər gəlirli sahə olan tütünçülüyün yenidən dirçəldilməsi də xüsusi rol oynayır. Ölkəmizdə ənənəvi sahələrdən olan tütünçülüyün inkişafı ilə bağlı həyata keçirilən davamlı tədbirlər, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi kənd əhalisinin tütünçülüyə marağının artmasına səbəb olub. Ekspertlərin də qeyd etdikləri kimi, tütünçülük iqtisadi cəhətdən səmərəli, yeni iş yerlərinin yaradılması və əhalinin gəlirlərinin yüksəldilməsində əhəmiyyətli sahələrdən biri kimi, geniş perspektivlərə malikdir. Bu sahənin inkişaf etdirilməsi yaxın gələcəkdə həm kənd əhalisinin məşğulluğunun təmin edilməsi, həm ixracın artırılması, həm də ölkəyə valyuta gətirilməsində önəmli rol oynayacaq. Bu səbəbdəndir ki, regionlarda fermerlər bu sahənin inkişafına xüsusi maraq göstərir, qabaqcıl təcrübənin də tətbiq edilməsi ilə məhsuldarlığın artırılması istiqamətində məqsədyönlü iş aparırlar. Cari mövsüm üçün proqnozlar da kifayət qədər nikbindir.

Bu məqamda qeyd etmək lazımdır ki, artıq təsərrüfatlarda tütünçülük sahəsində becərmə işlərinin qızğın çağıdır. Qax rayonunun təsərrüfatlarında məhsul istehsalçıları 4300 hektardan çox yazlıq bitkilər əkiblər. Bu barədə danışan Qax Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Eyvaz Aslanov bildirib ki, cari ildə rayonun təsərrüfatlarında 532 hektarda tütün əkilməsi planlaşdırılıb. Fermerlər bu günədək 315 hektar sahəyə tütün şitili köçürüblər. Bundan əlavə, məhsul istehsalçıları 321 hektar sahədə kartof, 345 hektarda tərəvəz, 1722 hektarda qarğıdalı, 101 hektarda soya, 100 hektarda lobya, 177,5 hektarda bostan bitkiləri əkib, 288,5 hektara vələmir, 951 hektara çoxillik yonca toxumu səpiblər.

Goranboyda isə tütün şitillərinin sahələrə köçürülməsi prosesi başa çatıb. Tütün əkini əsasən rayonun Yenikənd, Qarqucaq, Zeyvə, Şəfəq və Qaraçinar kəndlərini əhatə edir. Bu il bütövlükdə Goranboyda təxminən 8 hektar sahədə tütün əkilib. Məhsulun yığımı dövründə hər hektardan 1,5 ton quru tütün yığılması proqnozlaşdırılır.

Qəbələ rayonunun təsərrüfatlarında da tütün əkini kampaniyası başa çatıb. Cari mövsümdə rayonda 75 hektar sahədə tütün əkilib. Qəbələli fermerlər bu il 5 hektarda "Virciniya" növlü ətirli, 70 hektarda isə yerli tütün sortları yetişdirəcəklər. Builki mövsümdə rayonda quru tütün istehsalının 100 tona çatacağı proqnozlaşdırılır. Bu barədə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, cari təsərrüfat ilində rayonda tütün əkini və becərilməsi işlərinə 200-dən çox işçi cəlb olunub. Xatırladaq ki, ötən il qəbələli fermerlər 75 hektar sahədə tütün yetişdirib, 99 tona yaxın quru tütün istehsal ediblər.

Zaqatala rayonunun təsərrüfatlarında isə bu il 649 hektar sahədə tütün əkilməsi nəzərdə tutulub. Zaqatalalı fermerlər builki mövsümdə 439 hektarda "Virciniya", 17 hektarda "Berley", 193 hektarda isə yerli tütün sortları yetişdirəcəklər. Təsərrüfatlarda tütün şitillərinin sahələrə köçürülməsi prosesi artıq başa çatmaq üzrədir. İndiyədək 615 hektara tütün şitili köçürülüb. Tütün əkininə 1800-dən çox mövsümi işçi cəlb olunub. Yengiyan kəndindən olan fermer Telman Həsrətov rayonun əsas tütün istehsalçılarındandır. Onun rəhbərlik etdiyi "Dağlar" kəndli-fermer təsərrüfatı dörd ildir ki, tütünçülüklə məşğul olur.

Fermerin bildirdiyinə görə, bu il təsərrüfatda 60 hektar "Virciniya", 30 hektar yerli sortlar olmaqla, 90 hektar sahədə tütün əkməyi planlaşdırıb. İndiyədək 60 hektardan çox sahəyə şitil köçürülüb və tütün əkini üç-dörd gün ərzində başa çatdırılacaq. Təsərrüfat sahibi havalar əlverişli keçərsə, bu il tütün sahələrindən 900 tonadək yaşıl kütlə götürəcəyini proqnozlaşdırır.

Prezident İlham Əliyevin 2017-ci il 10 avqust tarixli Sərəncamına əsasən qəbul edilmiş "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" Qazax rayonunda da uğurla icra olunur. Kənd təsərrüfatında böyük potensiala malik, iqtisadi cəhətdən səmərəli olan, işçi qüvvəsi baxımından da böyük tələbatın olduğu tütünçülük Qazax rayonunda yeni iş yerlərinin açılmasına şərait yaradıb. Hazırda rayonda tütün əkini və becərilməsi işlərinə 250-dən çox işçi cəlb edilib. Artıq dördüncü ildir ki, Qazaxda iqtisadi cəhətdən gəlirli sahələrdən hesab olunan tütün becərilir. 2016-cı ildə cəmi 10 hektarda tütün yetişdirən rayon sakinləri 2017-ci ildə bu göstəricini 50 hektara çatdırıblar. Həmin il aqrotexniki tədbirləri vaxtında həyata keçirən tütünçülər 80 tondan çox məhsul götürüblər. Ötən il tütünçülər əkin sahələrini daha 10 hektar artıraraq 60 hektara çatdırıblar. Keçən il sahələrdən toplanmış 98 min tonadək qurudulmuş tütün "İlham-M" MMC-yə təhvil verilib. Cari ildə isə Qazax rayonunun təsərrüfatlarında 65 hektar sahədə tütün əkini həyata keçirilib.

İndiyədək rayonun Kəmərli, Qaymaqlı, Aslanbəyli, İkinci Şıxlı, Birinci Şıxlı, Yuxarı Salahlı, Orta Salahlı, Aşağı Salahlı, Kosalar, Cəfərli, Hüseynbəyli, Çaylı, Daş Salahlı, Dəmirçilər, Alpout, Fərəhli kəndlərində tütün şitillər sahələrə köçürülüb. Əkinlə yanaşı, suvarma da vaxtlı-vaxtında həyata keçirilib, bütün aqrotexniki qaydalara əməl edilib.

Artıq Oğuz rayonunun təsərrüfatlarında da tütün əkini başa çatıb. Cari mövsümdə oğuzlu fermerlər 110 hektarda tütün yetişdirirlər. Oğuz Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor müavini Akif Adıgözəlov bildirib ki, tütün istehsalçılarının işini asanlaşdırmaq məqsədilə ötən il rayonun Bucaq kəndində 10, Bayan kəndində isə 23 ədəd tütünqurutma kamerası quraşdırılaraq fermerlərin istifadəsinə verilib. Tələbatı nəzərə alaraq, bu kəndlərdə əlavə olaraq 12 ədəd tütünqurutma kamerasının quraşdırılması nəzərdə tutulur. Əvvəlki illər oğuzlu fermerlər yetişdirdikləri yaşıl tütün kütləsini qurutmaq üçün qonşu rayonlarda fəaliyyət göstərən emal məntəqələrinə aparmaq məcburiyyətində qalırdılar. Bu isə əlavə vaxt itkisinə, artıq xərclərə və məhsulun keyfiyyətinin aşağı düşməsinə səbəb olurdu. Xatırladaq ki, 2018-ci ildə Oğuz rayonunda 377,4 ton quru tütün istehsal olunub. Məhsul istehsalı əvvəlki illə müqayisədə 88 ton artıb.

Bu il Şəki rayonunun təsərrüfatlarında isə 950 hektar sahədə tütün əkilməsi nəzərdə tutulub. Təsərrüfatlarda tütün şitillərinin sahələrə köçürülməsi işi əsasən başa çatıb. Fermerlər nəzərdə tutulduğundan da çox sahəyə - 958,5 hektara tütün şitili köçürüblər. İndidən sonra daha 10-15 hektar sahədə tütün əkiləcəyi proqnozlaşdırılır. Bu barədə məlumat verən Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun baş məsləhətçisi Sahib Abdulhəmidov bildirib ki, şəkili fermerlər builki mövsümdə 709,5 hektar sahəyə "Virciniya" və 9 hektara "Berley" növ ətirli, 240 hektara isə yerli tütün sortları əkiblər. Tütün əkininə 2100-dən çox işçi cəlb olunub.

Ötənilki mövsüm də rayonun tütünçüləri üçün uğurlu olub. Belə ki, 2018-ci ildə şəkili fermerlər 2 min 976 ton quru tütün istehsal ediblər. Tütün istehsalı əvvəlki illə müqayisədə 346 ton artıb.

**Nardar BAYRAMLI**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında tikinti-quruculuq işləri cari ildə də davam etdirilir

*Bölgələrdə yeni müasir idman kompleksləri, təhsil və səhiyyə müəssisələri inşa olunur*




Məlum olduğu kimi, ölkəmizdə 16 ilə yaxındır bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılır. Həyata keçirilən iqtisadi islahatlara paralel olaraq makroiqtisadi sabitlik qorunub saxlanılıb, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənib, əhalinin sosial rifahı daha da yaxşılaşıb. Elə nüfuzlu beynəlxalq reytinq agentlikləri də ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində əldə etdiyi uğurları, eləcə də həyata keçirilən kompleks islahatların səmərəli nəticələrini olduqca yüksək qiymətləndirirlər. Ölkəmizdə ötən müddət ərzində infrastruktur quruculuğu da geniş vüsət alıb, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib, səmərəli nəticələr əldə olunub. Onu da qeyd edək ki, regionlarda təhsil, səhiyyə və idmanın inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir.

Yeri gəlmişkən dövlət başçısının idmana qayğısı və diqqətini əyani olaraq sübut edən əsas amillərdən biri də idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən mövcud idman qurğularının qorunub saxlanılması, yenidən qurulması, beynəlxalq standartlara uyğun yeni stadionların, Olimpiya İdman komplekslərinin tikilib istifadəyə verilməsidir. Məhz bunun nəticəsidir ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölkəmizin idman infrastrukturunun yenilənməsi və müasir standartlara cavab verən bazanın yaradılması istiqamətində əsaslı işlər görülür. Son illərdə respublikamızın şəhər və rayonlarında 45 Olimpiya İdman Kompleksi, Bakı Olimpiya Stadionu, Su İdmanı Sarayı, Milli Gimnastika Arenası, Stend Atıcılığı üzrə İdman Kompleksi və digər iri idman qurğuları tikilib istifadəyə verilib. Eləcə də mövcud idman obyektlərinin əsaslı təmir və yenidənqurma işlərini misal göstərmək olar. İdmanın müxtəlif növləri üzrə Azərbaycan milli komandalarının təlim-məşq toplanışlarının, idmançıların gündəlik məşqlərinin, həmçinin beynəlxalq idman turnirlərinin, respublika və zona yarışlarının keçirildiyi bu idman obyektləri, eyni zamanda, əhalinin də üz tutduğu məkanlardandır.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda Olimpiya komplekslərinin tikintisinin davam etdiriləcəyini, 2019-cu ildə daha üç Olimpiya Kompleksinin açılışının gözlənildiyini bildirib. Həmin komplekslərdən biri - Beyləqan Olimpiya İdman Kompleksi cari il fevralın 13-də Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, Gənclər və İdman Nazirliyinin sifarişi ilə hazırda Tərtər və Neftçala rayonlarında Olimpiya İdman komplekslərinin, həmçinin Yardımlı İdman Kompleksinin tikintisi davam etdirilir. Eyni zamanda, dövlətimizin başçısının müvafiq Sərəncamına uyğun olaraq, Gəncədə idman sarayının tikintisinə başlanılıb.

Xatırladaq ki, Tərtər Olimpiya İdman Kompleksinin təməli 2018-ci il fevralın 28-də qoyulub. Bu Olimpiya İdman Kompleksinin ərazisi 4 hektar, tikintialtı sahəsi 7320 kvadratmetrdir. Ümumi sahəsi 10 min 792 kvadratmetr olacaq bu idman qurğusunun əsas binasında 1000 tamaşaçı tribunası olan, müxtəlif idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulan universal idman, üzgüçülük, güləş, boks və trenajor zalları, 54 yerlik mehmanxana korpusu, restoran, mətbəx və digər texniki-yardımçı otaqlar olacaq. Baş plana uyğun olaraq, ərazidə açıq idman meydançaları, stadion da yaradılacaq. Kompleksdə işlərin, demək olar ki, 60-65 faizi görülüb.

Yardımlı şəhərindəki Heydər Əliyev prospektində inşa edilən idman kompleksində də işlər qrafikə uyğun yüksək keyfiyyətlə davam etdirilir. Burada əsas binanın tikintialtı sahəsi 3550 kvadratmetr, ümumi sahəsi 5436 kvadratmetr olacaq. Binada 800-ə yaxın tamaşaçı tribunası olan universal idman zalı, eləcə də güləş, boks, trenajor (fitnes), bilyard və stolüstü idman oyunları zalları nəzərdə tutulub. Burada 37 yerlik mehmanxana, kafe-restoran fəaliyyət göstərəcək. Ərazidə açıq tipli mini-futbol, voleybol meydançalarının və yardımçı tikililərin inşası planlaşdırılıb. Hazırda kompleksdə tikinti işlərinin 50-55 faizi yekunlaşmaq üzrədir. Fiziki imkanları məhdud tamaşaçıların və idmançıların hər iki kompleksdən tam və təhlükəsiz istifadə etmələri üçün zəruri şərait yaradılacaq.

Goranboy Olimpiya İdman Kompleksinin tikintisinə gəlincə Gənclər və İdman Nazirliyinin sektor müdiri Elmir Mehdiyev deyib ki, bu kompleks modern memarlıq üslubunda layihələndirilib. Tikinti işləri qrafikə və tikinti norma və qaydalarına uyğun olaraq yüksək keyfiyyətlə və sürətlə davam etdirilir. Kompleksin ərazisi 2,8 hektar, tikintialtı sahəsi 5900 kvadratmetr, ümumi sahəsi 9137 kvadratmetrdir. Kompleksdə 1100 tamaşaçı tribunası olan basketbol, voleybol, həndbol, mini-futbol yarışlarının keçirilməsi üçün universal idman stadionunun tikintisi planlaşdırılır. Burada həmçinin üzgüçülük, güləş, boks, trenajor, şahmat, konfrans zalları, yeməkxana, inzibati otaqlar tikiləcək. Eyni zamanda, baş plana əsasən ərazidə üçmərtəbəli 45 çarpayı yerlik mehmanxana və uşaqlar üçün meydançanın inşası nəzərdə tutulur.

Nazirliyin sektor müdiri əlavə edib ki, kompleksdə layihə üzrə avtonom qazanxana, transformator yarımstansiyası, yeraltı su anbarları və digər köməkçi sahələr də inşa olunacaq, fasiləsiz elektrik, su, qaz təchizatı məqsədilə buraya müvafiq kommunikasiya xətləri çəkiləcək. Ərazidə abadlıq, yaşıllaşdırma işləri həyata keçiriləcək. Kompleks müasir havalandırma, isitmə, soyutma və digər sistemlərlə təchiz ediləcək. İdman qurğusundan fiziki imkanları məhdud tamaşaçıların və idmançıların tam və təhlükəsiz istifadə etmələri üçün hər cür şərait yaradılacaq.

Hazırda kompleksin əsas binasında dəmir-beton konstruksiyalar quraşdırılır, hörgü, izolyasiya və digər işlər görülür. Ərazidə şaquli planlaşdırma və digər torpaq işləri yerinə yetirilir. Kompleksdə işlərin təxminən 20 faizi yekunlaşıb.

İdman infrastrukturunun yenilənməsi və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində görülmüş işlərin yalnız qeyd edilən iri idman obyektləri ilə məhdudlaşmadığını deyən E.Mehdiyev diqqətə çatdırıb ki, eyni zamanda, son 10 ildə təkcə Gənclər və İdman Nazirliyinin sifarişi ilə Bakı şəhərinin qəsəbələrində 9 idman zalı, mini-futbol və digər idman meydançaları, şahmat məktəbi tikilib istifadəyə verilib. Bu işlər, eyni zamanda, regionları da əhatə edib. Növbəti illərdə paytaxtın Səngəçal, Ələt, Qobustan, Qaraçuxur, Bülbülə, Türkan, Qala qəsəbələrində də bu kimi idman zalları və meydançaların tikilərək istifadəyə verilməsi nəzərdə tutulur.

Qeyd edək ki, belə Olimpiya İdman komplekslərinin yaradılması regionlarda idmanın kütləviliyinin təmin edilməsində, bölgələrdə yaşayan gənclərin sağlam həyat tərzi keçirməsində, gələcək idmançıların yetişdirilməsində mühüm rol oynayır.

Yeri gəlmişkən, yerlərdə idman kompleksləri ilə yanaşı təhsil və səhiyyə müəssisələrinin inşası da davam etdirilir. Belə ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası nəticəsində son illər Masallı rayonunda 50-yə yaxın məktəb binası tikilib və ya əsaslı təmir edilərək şagird və müəllimlərin istifadəsinə verilib.

Ağstafa rayonunun Böyük Kəsik kənd tam orta məktəbi üçün bina inşa olunur. İnşasına ötən ildən başlanılan Böyük Kəsik kənd tam orta məktəbinin binası 264 şagird yerlik olacaq. İkimərtəbəli bina müasir istilik sistemi ilə təchiz ediləcək və burada fənn kabinetləri, laboratoriyalar, yeməkxana, idman və akt zalı, kompüter otaqları, kitabxana fəaliyyət göstərəcək. Məktəbdə şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılacaq.

Məktəbin həyətyanı sahəsində futbol və voleybol meydançaları qurulacaq. Hazırda binada son tamamlama işləri aparılır. Təhsil ocağının tikintisinin yeni dərs ilinədək başa çatdırılması nəzərdə tutulur.

Masallı rayonunun Gəyəçöl kəndində yeni məktəb binasının inşasına isə ötən ilin iyulundan başlanılıb. 264 şagird yerlik üç korpusdan ibarət binada işlərin, demək olar, 80 faizi görülüb.

Müasir tələblər əsasında tikilən yeni məktəb binasında tədris prosesini yüksək səviyyədə aparmaq üçün hər cür şərait yaradılacaq. Məktəbdə 24 sinif otağı, fənn kabinetləri, kimya, fizika, biologiya laboratoriyaları, kompüter otağı, kitabxana, akt və idman zalları, yeməkxana fəaliyyət göstərəcək. Təhsil müəssisəsinin yeni tədris ilində müəllim və şagirdlərin ixtiyarına verilməsi nəzərdə tutulub.

Masallı rayonunun Lürən kəndində isə yeni tibb məntəqəsi istifadəyə verilib. Bu münasibətlə keçirilən mərasimdə rayon rəhbərliyi, səhiyyə işçiləri, ictimaiyyət nümayəndələri, kənd sakinləri iştirak ediblər. Tədbirdə çıxış edən Masallı rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov rayonun tibb işçilərini əlamətdar gün münasibətilə təbrik edərək, ölkəmizdə, o cümlədən Masallı rayonunda səhiyyənin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərdən, həyata keçirilən layihələrdən danışıb. Lürən kənd ərazi icra nümayəndəsi Zakir Əbilov, Masallı rayon Mərkəzi Xəstəxanasının baş həkimi Cəlil Nəzərov, kənd ağsaqqalı Balakərim Yaqubov, Lürən kənd tibb məntəqəsinin müdiri Narıngül Cabbarova və başqaları əlamətdar gündə kənd sakinlərinə hədiyyə edilən bu gözəl töhfəyə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

**Qaşqay RAMAZANOV**

# Minskdə ikinci Avropa Oyunlarının məşəlinin alovlandırılması mərasimi keçirilib






İkinci Avropa Oyunları ilə əlaqədar Minskdə Olimpiya məşəlinin alovlandırılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, paytaxtın mərkəzi parkında təşkil olunan mərasimdə Belarus Milli Olimpiya Komitəsinin sədri Georgi Katulin, fiqurlu konkisürmə üzrə rusiyalı Olimpiya çempionu, ikinci Avropa Oyunlarının səfiri Aleksey Yaqudin, idman ictimaiyyətinin nümayəndələri və şəhər sakinləri iştirak ediblər.

G.Katulin və A.Yaqudin çıxışlarında ikinci Avropa Oyunlarının əlamətdar hadisə olduğunu, bu mötəbər idman turnirinin regionda sülhə xidmət etdiyini vurğulayıblar.

Belarusun tanınmış idman ustalarının qatıldıqları tədbirdə Olimpiya məşəli alovlandırıldıqdan sonra marafon keçirilib.

Xatırladaq ki, II Avropa Oyunlarında Avropanın 50 ölkəsindən 4 mindən çox idmançı 200 medal dəsti uğrunda mübarizə aparacaq. Azərbaycan "Minsk 2019"da 82 idmançı ilə təmsil olunacaq.

# Bakcell və INNOLAND birgə İnkubasiya Proqramının iştirakçılarını seçib




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti və İNNOLAND Inkubasiya və Akselerasiya Mərkəzinin birgə inkubasiya proqramına birinci seçim başa çatıb.

Daxil olmuş 20-dən çox müraciət arasından seçilən 5 ideyanın müəllifləri öz startap layihələrini Seçim Komitəsi qarşısında təqdim edib. Ətraflı qiymətləndirmədən sonra, ən yüksək bal toplamış 3 startap komandası INNOLAND və Bakcell şirkətinin birgə inkubasiya proqramında iştirak etmək hüququ qazanıb.

Seçimlərdən uğurla keçən "Face Ads", "ToWaves" və "Bon.az" komandaları öz layihələrini reallaşdırmaq şansı əldə ediblər. "Face Ads" sosial media sahəsində icraçı və sifarişçi arasında əməkdaşlığı formalaşdırmaq üçün yaradılmış platformadır. "ToWaves" ortaq maraq və oxşar fikirləri olan insanları bir araya gətirən şəbəkədir. "Bon.az" isə istifadəçilərin onlayn alış-verişdən "cashback" əldə etməsi üçün yaradılan sistemdir.

Layihədən asılı olaraq, növbəti 3-6 ay ərzində startap komandaları INNOLAND və Bakcell tərəfindən təqdim olunan pulsuz ofis sahəsi, peşəkar məsləhətlər, avadanlıq, təlimlər və digər imkanlardan istifadə edə biləcəklər. Bu dəstək sayəsində gənclər öz layihələri üzərində daha effektiv şəkildə işləyərək startap ideyalarını uğurlu və innovativ biznesə çevirmək imkanına malik olacaqlar.

Seçilmiş komandalar inkubasiya müddəti ərzində həm INNOLAND həm də "Bakcell"in AppLab mərkəzinin imkanlarından yararlanacaqlar.

Xatırladaq ki, Bakcell şirkəti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin INNOLAND Inkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Həmin müqavilə çərçivəsində Bakcell və INNOLAND yerli startaplar üçün birgə inkubasiya proqramı həyata keçirir. Bu əməkdaşlıq ölkənin bütün startap ekosisteminin inkişaf olunmasına böyük töhfə verməklə Azərbaycanda startap mədəniyyətinin formalaşdırılmasında strateji rol oynayır.

2014-cü ildən etibarən müxtəlif proqram təminatı və avadanlığın yaradılması ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün Bakcell şirkətinin AppLab proqramından dəstək alırlar.

# "Nar" Azərbaycanın rəqəmsal inkişafına öz töhfəsini verməyə davam edir



Azərbaycanda hər zaman informasiya və kommunikasiya texnologiyaları sahəsinin inkişafını dəstəkləyən "Nar"ın tərəfdaşlığı ilə baş tutan NETTY-2019 - Azərbaycanın milli internet mükafatının qalibləri müəyyən edilib. Belə ki, il ərzində keyfiyyətli məzmununa, istidafədəçiyə yararlılığına görə "Dövlət" nominasiyasında "intangible.az" saytı, "Təhsil və Elm" nominasiyasında "Bildilçin" tətbiqi, "Mədəniyyət və Yaradıcılıq" nominasiyasında "shekiculture.az", ən yaxşı sosial səhifə nominasiyasında "Asan Viza" Facebook səhifəsi qalib olub. Digər nominasiyaların qalibləri ilə netty.az saytında tanış ola bilərsiniz.

Nominasiyalar üzrə qaliblər Ekspert Şurasının və virtual münsiflər heyətinin seçiminə əsaslanaraq NETTY Akademiyası final səsverməsi zamanı müəyyən edilib. Bundan başqa, müsabiqədənkənar fəxri və həvəsləndirici nominasiyalar üzrə də müafatlar təqdim edilib.

**"İnternet və ümumilikdə, İKT həlləri gündəlik həyatımızın ayrılmaz bir parçasına çevrilib. NETTY milli internet mükafatının əsas məqsədi ölkəmizdə bu sahə üzrə ən qabaqcıl və keyfiyyətli informasiya resurslarını və layihələrini müəyyən edərək onların inkişafına təkan verməkdir. Biz eyni zamanda informasiya mədəniyyətinin cəmiyyətdə artırılması, əhalidə informasiya texnologiyaların populyarlaşdırılmasını hədəfləyirik. Rəqəmsallaşma dövründə bu cür mühüm bir tədbirin keçirilməsində bizə dəstək olduğu üçün "Nar"-a təşəkür edirik",** - deyə "NETTY" milli interet mükafatının təşkilat komitəsinin sədri Ruslan Novruzov bildirib.

Qeyd edək ki, "Nar" KSM strategiyası çərçivəsində artıq ikinci ildir ki, "NETTY" milli interet mükafatının əsas dəstəkçisidir.

# "Nar" Paralimpiya Oyunlarının iştirakçılarına dəstək olacaq

Gənclərə və idmana yönəlik korporativ sosial məsuliyyət (KSM) strategiyasını davam etdirən "Nar", "Ümid" İdman Klubuna dəstək olacaq. Mobil operator klub üzvlərinin Paralimpiya Oyunlarına lisenziya qazanması üçün Avropa və dünya yarışlarına hazırlaşmasına öz töhfəsini verəcək. Bundan başqa, "Nar" idmançıların 2020-ci ildə Yaponiyanın Tokio şəhərində keçiriləcək XVI Yay Paralimpiya Oyunlarında iştirakına da dəstək olacaq. Layihə çərçivəsində klub idmançılarına lazım olan təchizatı və digər xərcləri "Nar" təmin edəcək.

Qeyd edək ki, 2008-ci ildə yaradılan "Ümid" İdman Klubu atletika, üzgüçülük, cüdo və uşaq şahmatı idman növləri üzrə ixtisaslaşıb. Bu müddət ərzində "Ümid" İdman Klubunda ölkə, Avropa və dünya çempionları və Olimpiya Oyunlarının finalçıları yetişib. Eyni zamanda, klub idmançıları 2012-ci ildən paralimpiya atletika və üzgüçülük növlərində Avropa, Dünya Çempionatlarının və Paralimpiya oyunlarının qızıl, gümüş, bürünc medallarını qazanıblar.

nar
Çünki daha çoxuna layiqsən

"Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyasına uyğun olaraq gənclərə və idmana hər zaman dəstək olur. Əsas məqsəd peşəkar idmanla məşğul olan gənclərin və yeniyetmələrin, eyni zamanda fiziki məhdudiyyətli idmançıların dünya miqayasında Azərbaycanı təmsil etməsinə dəstək olmaqdır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU